Çabaladı, töyşüdü.
Açıb yumdu gözünü.
O günahsız heyvanın
Yaş bürüdü üzünü.

Ata gəlib cüyürün
Yarasını bağladı.
Oğlu dura bilməyib
Hönkür-hönkür ağladı...

* * *

Əfsanəydi bu sözlər
Uydurub şair-ata,
Balasının əlindən
Çıxmamışdı bir xata.

Baş tapmıram, qalmışam
Başıma döyə-döyə –
Fəxrəddinim qanına
Qəltan oldu bəs niyə,
Bəs niyə?!

Mənim gözüm ulduzlara, günə, aya zaman-zaman baxacaqdır

ULDUZLARA GEDƏN YOLDA

Vladimir Komarovun xatirəsinə

Qaranəfəs gəldi oğlum
Əsə-əsə qolu, qıçı.
Dedi bu gün həlak olub
Dünən uçan asimançı.

Bir titrəmə tutdu onun
Çənəsini, dodağını.
Göz yaşı da islatmışdı
Kipriyini, yanağını.

Söz tapmadım sual verim
Cavab alım mən bu hala;
Dilədim uca Tanrıdan
Kaş bu xəbər yalan ola.

Bir az əvvəl fəzalardan
Almadıqmı salamını?
Alqışladı hamı səni,
Alqışladın sən hamını.

Nəbzin bahar yağışıtək
Yağmırdımı dünən yerə –
İnam ilə dövr etdikcə
Nəfəsini dərə-dərə?

Səni sənsiz bircə an da
Kim deyər ki, biz unutduq,
Əhvalından, ünvanından
Hər dəqiqə xəbər tutduq.

Qulağımız radioda,
Gözlərimiz göydə qaldı.
Oğlun-qızın yol gözlədi.
Atan dərin fikrə daldı...

Arvadının həmin gecə
Gözlərindən qaçdı yuxu.
Bu gün aprel səhərini
Dirigözlü açdı çoxu.

Qayıdanda polad quşun
Qoymadın ki, düşsün dara.
Şahin gözün od püskürdü
Zülmətləri yara-yara.

Hazırlaşdı ana torpaq
Qəhrəmanın pişvazına.
Dünya baxdı... sən çıxanda
Zülmətlərdən yana-yana.

Səadət də, fəlakət də
İzlədi səni.
Şənlik-matəm, sevinc-kədər
Gözlədi səni.

Ölüm göyə hücum çəkib
Bir qanad çaldı.
Xoşbəxtliyin ağuşusa
Açılı qaldı.

Ah, o müdhiş kabus...niyə
Gecikmədi bir saniyə.

Bənövşə boynunu bükdü,
Zanbaqların üzü soldu –
Təbrik üçün gələn güllər
Dönüb necə əklil oldu.

Əlvan səhra çiçəyinə
Qara həşyə bağladılar.
Gülə-gülə yığılanlar
Hönkür-hönkür ağladılar.

Şimşək yedin, alov içdin,
Meteortək yanıb keçdin –
İşıqlandı göyün qatı.

Tarix basdı sinəsinə
Asimanın səhifəsinə
Tarix yazan bir həyatı.

Ulduzlara gedən yolda
Min fikirdə, min xəyalda...
Od libaslı bir heykəl var –
Qarşısından karvan-karvan
Kainata axan zaman
Baş əyəcək kosmonavtlar.

SƏNDƏN ÖYRƏNİB

Qartal təyyarənin qalxdı dalınca,
Dolandı qeyz ilə, süzdü qeyz ilə.
Buluddan bir udum nəfəs alınca
"Polad quş" çatmışdı uzaq mənzilə.

Dözə bilərdimi qartal bu dərdə,
Toplayıb özünü şığıdı bir də.
Şığıdı... Baxmadı sözə qanadı,
Şimşəklər töküldü gözündən yerə.

Caynağı köksünü didib qanatdı,
Qıy çəkib qəzəbdən o, təpdi nərə.
Bir qaya üstünə sərili düşdü,
Qüsəli gözüylə gözüm görüşdü.
Dedim, qoca qartal, vüqarlı qartal,
Baxma bu dövrana sən qərib-qərib.
Üzməsin qəlbini, üzməsin məlal –
Təyyarə uçmağı səndən öyrənib.

GÖYDƏ MƏŞƏL

Qartala əzizdir əngin səmalar,
Ucalıb şövq ilə o, qanad çalar.
Mavi göy ünvandır, vətəndir ona.
Sadiq övlad kimi girər qoynuna.
Qırpılmaz bir an da iti gözləri,
Toxunar yad kölgə onun şəstinə.
Bir qara nöqtəyə dəysə nəzəri
Yığıb qanadını süzər üstünə.
Şimşək çaxışına bənzər bu uçuş,
Düşər vahiməyə görsə hansı quş.
Dartılı yayından qopmuş ox sanar,
Gözünü açmamış tükü tozlanar.
İşdir, təyyarə də çıxsa önünə,
Qartal tərəddüdsüz şığıyar yenə,
Şığıyar mərmitək, geriyə dönməz –
Ölüm nicat kimi görünər ona,
Bu vətən şövqüdür, sönməz ki, sönməz,
Göydə məşəl olar o, yana-yana...

DELFİNLƏR

Dəniz bu gün mehriban,
Dəniz bu gün səmimi,
Sularına qərq edib
Bütün dərdi-sərimi.

Ələ baxıb udqunur
Yem axtaran balıqlar.
Süzüb keçir ox kimi
Mühərrikli qayıqlar.

Dalğaları mərmitək
Yarır bir cüt qaraltı.
Qayıqlarla yarışır
Gah üzdə, gah sualtı.

Sonra quyruğu üstə
Süzüb bələdən-belə
Çəkinmədən yan alır
İzdihamlı sahilə.

Çəpik çalır uşaqlar:
– Delfinə bax, delfinə,
Rəqs eləmək, oynamaq
Düşüb yenə kefinə.

Tanış səsi eşidib
Lap yaxına üzürlər.
Musiqiyə, alqışa
Qanad çırpıb süzürlər.

Şövqə gəlib şənlənir,
Şövqə gəlib coşurlar.
Bir-birinin üstündən
Nəzakətlə aşırlar.

Əbəs deyil beləcə
Qalxıb onlar cövlana –
Qıztək cilvə göstərir
Delfinlər hər baxana.

Deyirlər ki, delfinin
Şüuru var, hissi var –
Hərdən çəkər qəhqəhə,
Hərdən hönkürüb ağlar.

Əhvalını soruşsan
Danışar da, dinər də.
Suda əsir qalanın
Harayına gələr də.

Bəlkə, bəlkə o, suların
Pərisinin əslidir,
İnsanların dənizə
Küsüb getmiş nəslidir?

İndi istər qayıtsın
Həmcinsinin yanına,
İndi istər qayıtsın
Öz adına-sanına.

Delfin – ləpələr qızı,
Dalğaların oğludur.
Delfin – dəli dəryanın
Kamalıdır, ağlıdır.

İnsanların dənizdə
Sirdaşıdır delfinlər,
Gözəl-göyçək bacısı,
Qardaşıdır delfinlər.

Niyə uçmaq istərik
Biz görəndə delfini,
Niyə qucmaq istərik?
Su pərisi – delfini?

Bu meylə səbəb nə,
Nədir bu hiss, bu həsrət?
Bu duyğunu nə üçün
Verib bizə təbiət? –

İnsan həmtay axtarar,
Sirdaş gəzər həmişə.
İnsan ülfət dalınca
Girər oda, atəşə.

Ulduza da, suya da,
Gələr onun gümanı.
Ağıllı görmək istər
Yeri, göyü, ümmanı...

SƏSSİZ MAHNI

Göz yaşları səssiz-küysüz nurlu mahnıdır.
Gizli fikri bəyan edir, qəlbi tanıdır.

Bulaq olub qaynayar o, gəlsə xoş xəbər.
Təbəssümlə şəfəqlənib yanağı bəzər.

Cilvə verər qara gözün gözəlliyinə,
Dad o gündən kölgələnə, qara geyinə,

Axa sakit, axa sözsüz, axa aramsız.
Ürəkləri parçalayar ağlayan bir qız.

Vaxt olur ki, göz yaşıyla ovunur ana –
Övladının addımıdır düşür ovcuna.

Balasına həsrət ata hönkürtüsüdür,
Dar ayaqda umulandan gizli küsüdür.

Quşu ölən bir uşağın ilk insafıdır,
Əməlindən peşimanın etirafıdır.

Qaytarılmış bir üzüyün sınıq qaşıdır,
Kövrək qəlbin daş ürəyə yalvarışıdır.

Qəriblərin: "vətən, vətən..." zümzüməsidir,
Məhbəsdəki günahsızın fəryad səsidir.

Acizlərin etirazı olarmış yaman –
Çaylar daşar göz yaşları tökülən zaman...

ÜRƏK

İpək telli, zərif qəlbə
Qurğuşun tök qəlpə-qəlpə.
Üstünə qor səpə-səpə
Xışmalayıb əz ürəyi;

Rəhmə gəlib demə candır,
Oda tutub alovlandır,
Düşünmə ki, axan qandır,
Tiyə alıb cız ürəyi;

Gecə-gündüz qalsa oyaq,
Əhvalından tutma soraq,
Talan olmuş şəhər sayaq
Tapdalayıb gəz ürəyi;

Nəşə çağı, sevda dəmi
Karvan-karvan göndər qəmi,
İstər qızıl alma kimi
Budağından üz ürəyi;

Çarpacaq son nəfəsində,
Ömür-həyat həvəsində.
Qoca kişi sinəsində
Çarpmadımı qız ürəyi!

Zaman dərya... Ömür ada,
Dalğalara olmaz qida!
Versə ancaq verər bada
Bir tufanlı söz ürəyi!

SON BAXIŞLAR

Deyirlər bir insan ölcək
Kainatın üzü dönür.
O bədbəxtin gözləritək
Səmada bir ulduz sönür.

Ulduz sönür – qoynundakı
Neçə əməl dəyir daşa.
Ulduz sönür – sirli dünya
Toza dönür başdan-başa.

Hər ürək də asimandır,
Şölə saçır ulduz kimi.
Yaranışdan vardır onun
Öz dünyası, öz aləmi.

O dayansa, o vurmasa
Dağ başını qar almazmı?
Yer üzünü bəzəyəcək
Qönçə güllər saralmazmı?

O dayansa, o vurmasa
Göy gurlayar, şimşək çaxar;
Səma qara buludlardan
Sinəsinə bir lent taxar.

Ay tutular, ay camalda
Çatılanda qara qaşlar.
Nə həsrətli, nə sirlidir
Son baxışlar, son baxışlar...

Səfəq çağı sönür ulduz,
Sönər-sönər... ah nə dəhşət!
Neçə-neçə dost ürəyin
Dünyasına çökər zülmət.

Deyirlər bir insan ölcək
Kainatın üzü dönür.
O bədbəxtin gözləritək
Səmada bir ulduz sönür.

Bəli, nəfəs gedən anda
Bir aləmin sonu çatır.
Göz əbədi yumulanda
Ulduz nədi, günəş batır...

TƏZƏ BAŞLANAN ÖMÜR

Öz köçünü çəkirdi qoca nənə qüruba,
Yığılmışdı başına bütün qohum-əqrəba.
Dodağına sıxmışdı oğlu onun əlini.
Söykəyinə girmişdi gözüyaşlı gəlini.
Can vermirdi fəqət o, vardı nəsə bir sözü,
Axtarırdı nəyisə onun çəkişən gözü.
Yuxudaydı elə bil, o hövlnak oyandı:
"Körpə hanı?.. Qoymayın, suya düşər, amandı!.."
Sayıqlayıb düşmüşdü zənn etməyin təşvişə,
Nəvəsinin üstündə əsirdi o, həmişə.
Təzə-təzə yeriyən körpə qanad açırdı,
Fürsət gəzir, yol tapcaq arx üstünə qaçırdı.
Qarı ora qoymazdı... gəzdirərdi çəməni.
Gətirəndə nənənin hüzuruna körpəni
Arxayınca yumulan gözdən düşdü bir gilə.
Min əzabla çatsa da qarı bu son mənzilə,
Aha dönüb uçsa da axırıncı nəfəsi
Onun təzə başlayan ömrü idi nəvəsi.

GƏNCƏNİN YANINDA

Qəbrimin üstünə gəldiyin zaman
Pak olan ruhumu xatırla bir an...

Nizami

Gəncənin yanında bir düzənlik var,
Sərmiş xalçasını ora ilk bahar.
Ağaclar hüzn ilə əymiş başını,
Bülbül də gözünün inci yaşını
Tökür qızıl gülün tər yanağına,
Mahnı deyir, qonub kül budağına.
Kəkliyin avazı, turacın səsi,
Telli torağayın şirin nəğməsi
Sanma ki, quşların təranəsidir,
Yox, bu həyat səsi, sevda səsidir!

Yarpaqlar içində hər axşam-səhər
Dolaşır ətirli, sərin küləklər...
Günəş istisindən yananda otlar
Bura kölgə salır topa buludlar.
Qədim məzarıstan olan bu yerdə,
Min tale çiçəyi solan bu yerdə
Əsrlər boyunca yağan qar-yağış
Saysız qəbirləri söküb dağıtmış;
Kürün suyu qədər axmış göz yaşı,
Çürüyüb toz olmuş neçə başdaşı.
Dönmüş neçə dəfə çərxi zamanın,
Neçə min ulduzu batmış səmanın,
Neçə sərkərdənin sönmüş muradı,
Burda qılıncıtək pas atmış adı.
Mənəm deyənləri unutmuş zaman –
Şahlar məzarından qalmamış nişan.
Burda yalqız, təkcə qədim bir məzar
Ölməz sənətkardan durur yadigar.
Qoruyub göz kimi yüz illər onu
Vermiş bir-birinə nəsillər onu.
Güllər içindəki bu tənha məqbər
Yeni tikilsə də, onu ürəklər
Sevib yaşatmışdır səkkiz yüz ildir,
Min tufan qopsa da uçan deyildir!

FÜZULİ KÖLGƏSİ

Zaman qalı,
Ün gedər, zaman qalı,
Yıxılı uca dağlar,
Tozu bir zaman qalı.

Kərkük bayatılarından

Bir dağ idi Füzuli –
Köksü cəvahir dolu.
Əriş-argac etmişdi
Sinəsini söz yolu.

Gül-çiçəkli döşündən
Keçən bir də keçərdi,
Şirin bulaqlarından
İçən bir də içərdi.

Qafqaz idi Füzuli –
Ucalmışdı səhrada.
Silsilədən ayrılıb
Tək qalmışdı səhrada.

Uzanmışdı uzağa
Bu tək dağın kölgəsi,
"Təhti-himayəsində"
Neçə şeir ölkəsi.

Qışın oğlan çağında
Nə bürüncək, nə bəlgə?! –
Səhra ola, yay ola...
Cənnət idi bu kölgə!

Şahdağıydı Füzuli –
Başı qarlı, tufanlı,
Arzusuna aparan
Yol... dumanlı-gümanlı.

Əzəmətli dağsa da
Çöpdən azdı taqəti –
Didərgindi mahalı,
Didərgindi milləti.

Dağ götürməz ağır yük
Yıxdı bir gün bu dağı...
Bilib çəkə bilmədi
Doğma dağlar bu dağı.

Verib dağlar səs-səsə
Hönkür-hönkür ağladı.
Murov, Kəpəz, Dəlidağ,
Savalan yas saxladı.

Çatdı Gəncə, Şirvana
Kərbəlanın harayı,
Şahsız qaldı yüz illər
Şerin, sözün sarayı.

Dağ var, uçur, qalmır da
Nə tozu, nə əsəri –
Əsir etdi hər əsri
Füzulinin əsəri.

Əsir etdi bu günlü,
Gələcəkli hər kəsi –
Şerimizin üstündə
Var Füzuli kölgəsi.

NƏBZİN VURUR

Abbas Səhhətin əziz xatirəsinə

Dedin: "Yad et, yad et məni,
Bidar görəndə vətəni..."
Sardı müdam ürəyini
Nisgilli bir qürur, şair.

Gül ətrinə bata-bata
Hər gün, hər an düşdün yada.
Yurdsevərlər vicdanında
Sənə heykəl qurur, şair.

Həb içirdin, şer yazdın,
Dərd-azara quyu qazdın.
Yoxsa sən Səhhət olmazdın –
Hər əməlin durur, şair.

Vəsiyyətin qulaqlarda,
"Vətən" şerin dodaqlarda.
Şair, təbib olsa harda
Ruhun əhval sorur, şair...

Sənətini bayraq edən,
Xeyir umub şöhrət güdən
Həkimlərdən, şairlərdən
Bir az giley edək sana:

Şair var ki, xalqdan uzaq,
Misraları soyuq-sazaq,
Oda atsan sönər ocaq...
Özü qalar yana-yana.

Həkim var ki, azıb yolu;
Varın qulu, pulun qulu.
Can versə də "millət oğlu"
Müftə məhəl qoymaz ona...

Lüzumsuzdur bayram günü
Çox uzadaq bu söhbəti.
Sənə xain çıxanlara
Kifayətdir el töhməti.

Lakin doğma diyarında
Qeyrətlilər vüqarında,
Neçə nəslin damarında
Sənin nəbzin vurur, şair,
Hər əməlin durur, şair!

HAMI "SƏNSİZ" OXUYUR

Bir yel əsdi, qızılgülün ləçəkləri töküldü,
Budaqları büküldü.

Bir yerləşdi, nəğməkarı gülşənindən qopardı,
Cəh-cəhini apardı.

Bir ah çəkdi eşidəndə bu dərdi, bu sorağı
Azərbaycan torpağı.

Qəmli, dərin bir sükuta qərq olsa da adamlar,
Qəlblərdə bir mahnı var.

Milyonların sinəsindən qanadlanan o mahnı
Gəzir bu gün dünyanı.

Gəzir itmiş sahibini gəzən kimi – səbirsiz,
Gəzir səssiz-səmirsiz...

Şirin Bülbül ahəngiylə hamı "Sənsiz" oxuyur,
Hamı sənsiz oxuyur...
Hamı səssiz oxuyur...

VURĞUN ÖLDÜ DEMƏYİN...

Yubileyindir, bütün aləm
Hələ təbrik deyir sənə...
Dünən bayram, bu gün matəm,
Bax, şairin taleyinə...

Dostlar yazdı, o gün üçün
Mənim də öz hədiyyəm var,
Dünən bitdi sənə ömür
Dilədiyim son misralar...

Xal düşməyib o vaxt gələn
Gül-çiçəyin tellərinə,
Qarışıbdır indi həmən
Buket, əklil bir-birinə.

("Vurğun öldü" sözün dilə
Nə cürətlə biz gətirək?!
Bayatilə, ağı ilə
Car çəkilə bu dərd gərək...)

Baxır bizə qırpılmamış
O işıqlı, şahin gözün,
Qulaqdadır gücfü alqış
Sədasilə coşan sözün:

"El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən".
İllər, bir an dönün geri,
Yenə qulaq asaq ona,
Min fərəhlə qoy yığılaq
Biz Natəvan klubuna.
Sinə gərsin pələng kimi
Bir an yenə o, kürsüyə:
"Şer qartal qanadında
Üfüqlər fəth etsin..." deyə.
Qoy dinləsin qardaş ellər
Onun məğrur, gur səsini,
Salon yenə qulaq olsun
O, çəkəndə nəfəsini.
Baxaq ovçu libasında
Gəzən zaman o, çölləri,
Heyran qalaq söhbətinə,
İllər, bir an dönün geri...

("Vurğun öldü" sözün dilə
Nə cürətlə biz gətirək?!
Bayatilə, ağı ilə
Car çəkilə bu dərd gərək...)

Dağa-daşa düşmüş səda,
Qartal boynun büküb ağlar –
"Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar".

Vida üçün gələnlərə
Söyləyirsən sanki bu dəm:
"Asta olun, mən heç yerə,
Mən heç yana tələsmirəm"

İnsan seli ehtiramla
Axıb keçir tələsmədən,
İstəyirlər sən aramla
Hər zərrəni seyr edəsən.

Qəhər boğur xısın-xısın
Qocaları, cavanları –
Qoy uzansın, qoy uzansın
Ayrılığın son anları.

Başın üstə durmuş, budur,
Füzulilər yola salan
Gözü yaşlı, qəddi məğrur
Doğma anan Azərbaycan.

Bu məhəbbət, bu ehtiram,
Dağlardakı o düz ilqar
Deyir: sözün yaşar müdam,
Sənin deyil o "tək məzar"!

Gül fəslində göz açmısan,
Sən gəlmisən bu dünyaya,
Sənətinlə nur saçmısan
İlk baharı duya-duya.

Gəlişin də, gedişin də,
Əməlin də bahar olmuş.
Söz bağına şahin səsi,
Çiçək ətri gəlib dolmuş.

Səndən deyib gənc analar
Tərpədəcək beşiyini –
Nəsil-nəsil çəkəcəklər
Bu baharın keşiyini!

Başın üstə durmuş sənin
Füzulilər yola salan
Öz torpağın, öz vətənin –
Doğma anan Azərbaycan...

DALĞA KİMİ

Məsud Əlioğluna

Qəm-qüssəyə qərq cləyib dostu, həmdəmi
Əbədilik geri dönən dalğalar kimi
Gedər-gəlməz yola çıxdı sahildən gəmi.
Üfüqləri, sən də elə qat-qat aşırsan,
Uzaqlaşır, uzaqlaşır, uzaqlaşırsan.

Xasiyyətin necə şəndi, könlün necə şad...
Oyalanır neçə-neçə şirin xatirat.
Sonsuzluqdan ləpə-ləpə hər gün, hər saat
Qəlbimizin sahilinə doğru qoşursan,
Yaxınlaşır, yaxınlaşır, yaxınlaşırsan.

VAQİF İBRAHİM

Bilməz idik, duymaz idik
biz bu qədər
amansızmış, qəddar imiş
qəfil xəbər,
qəfil kədər...

Qəfil kədər! Nə yüyrəkmiş
sənin atın –
bircə anda
neçə diyar qət elədin,
neçə ürək parçaladın –
Səfərdəydi onun özü,
Uçuşdaydı onun sözü.
Kim inanar, kim –
bu səfərə çıxar oldu,
bu səfərdən dönməz oldu
Vaqif İbrahim.
Şair idi – təbi bulaq,
bəhrəli bağ,
yığmış idi cavanları
ətrafına,

yollarına nur tökürdü
öz oduna yana-yana.
İnsan idi – ürək teli
sarı simdən,
təbiəti yoğrulmuşdu
həssaslıqdan,
təbəssümdən.
Vətəndaşdı – yumruğu daş,
qəlbi mülayim –
Ləyaqətin fövqündəydi
Vaqif İbrahim.

Səy edirdi silə-silə
yox eləsin acıları.
Öyünürdü adı ilə
bacıları.
O sürgünə göndərdikcə
yolu kəsən qəmi-yası,
fəxr edirdi zəfərilə
el-obası,
hünərilə
qardaşları.
"Sən saydıqca say..." – deyiblər.
Qəfil xəbər!
Qurumayıb axı hələ
onun ana türbəsinə
axıtdığı göz yaşları.
Körpə-körpə övladların
atasıydı,
bu gün sabah neçə-neçə
dərdi-səri atasıydı.
İstəyinə çatasıydı
dostu-yarı,
səfərdəydi arzuları...
Kim inanar, kim –
Bu səfərə gedər oldu,
bu səfərdən dönməz oldu
Vaqif İbrahim

ATASIZ-ATALI QIZ

Telefon səsləndi hıçqırtı ilə:
"Keçindi güvənci obanın, elin,
Kimin gücü çatıb əcəl-qatilə,
Qızını təcili gətirin, gəlin..."

Bu xəbər amansız, bu xəbər yaman,
Dammışdı əzəldən ürəyimizə.
Qızı "beş" almışdı son imtahandan,
Sevinci bölməyə gəlmişdi bizə.

Elə fərəhliydi, elə şəndi ki,
Durub süzəcəkdi yazıq az qala.
Dedi evimizə zəng edim indi
Bəlkə atam bilə, dərdi azala...

Danışıb güldük də – qoşulduq ona,
O yerə qoymadıq heç özümüzü.
Qoymadıq yanaşsın o, telefona,
"Hazırlaş, gedirik, – dedik, dan üzü.

Narahat etməyə dəyməz bu vaxtı,
Tezdən çıxacağıq, bizdə gecələ...".
Məmnun baxışlarla sevindi, yatdı,
Axdı gözümüzdən yaş gilə-gilə.

Cəhənnəm oduymuş yalan dil-ağız –
Qovrulduq sübhədək, əzab, qəm yedik.
İllərlə atasız qalacaq o qız,
Bir gün də atalı yaşasın dedik...

TƏZƏ QALAR, ƏZİZ QALAR

Balaca Xatirəyə

Zülmət çökdü bir həyətə,
bir həyata
sübh çağı.
Söndü gözlər,
keçdi evin çırağı.
Xəstə yatdı ikicə gün
ətrafını süzərək,
doğram-doğram doğrandı o,
ağrılara dözərək.
Əcəl qılınc çəkən zaman
nə qışqırdı, nə dindi,
sinəsini özü örtdü –
həyalı bir gəlindi.
Əməlləri yarpaq tökdü
çiçəklər açılanda,
anası köksünü sökdü
sübh şəfəqi saçılanda.
Qardaşı heç kirimədi,
bacıları yaman kürdü...
"Balam, laylay..." dedi ata,
ər hönkürdü.
Zalım tale
yer qoymadı o nainsaf
təsəlliyə,
ağladılar, vaysındılar
"nakam" deyə.
Axı, nə gün görmüşdü ki...
Əyməmişdi şax qəddini
ömür yükü.
Görməmişdən
günlərinin gözəlini,
bəzəməmiş
tikiləcək mənzilini,
sığal çəkib bir şitili bitirməmiş,

qız köçürüb evə gəlin gətirməmiş
tərk eləmək bu dünyanı... nə yamandır!
Tale özü taleləri
talayandır!
Talesizdən nişan qalar –
Nakam, Arzu, Yadigar...
Solmazınsa Xatirəsi qalıb bizə,
diqqət etsən o körpənin dilindəki
hər bir sözə –
Solmazındır.
İri, qara gözlərinin gur işığı,
yaraşığı –
Solmazındır.
Qüssəsi də, gülüşü də,
ədası da, yerişi də –
Solmazındır!
Solmamışdır, itməmişdir
onun hüsnü, onun sözü,
onun qəlbi, onun ruhu –
onun özü!
Qüvvə hanı bu qüdrəti itirəsi –
nə saralar, nə də solar,
tanıyana əziz qalar
Solmazın ilk Xatirəsi,
Solmazın son Xatirəsi...

SEVİL

Şair idin – baxışların zillənərdi uzaqlara,
Arzuların muncuq kimi düzülərdi varaqlara.
Tuti təbin hey uçsa da budaqlardan budaqlara,
Natəvanın nəğməsitək qonmamışdı dodaqlara,
Ürəyində neçə-neçə deyilməmiş sözün qaldı...

Qəhrəmandın – hələ ulduz taxmasan da sən döşünə,
Dan ulduzu heyran-heyran göz dikərdi gəlişinə.

Turaclı çöl səhər-səhər səs verərdi gülüşünə,
Tələsərdi sükan tutan qız-gəlinlər görüşünə,
Sirdaşından ayrı düşən tarlaların, düzün qaldı...

Bir qız idin – əsə-əsə böyütmüşdü anan səni,
Təkcə sənə bağlamışdı arzusunu, əməlini.
Bir kimsəyə verməmişdin öz qəlbini, öz əlini,
Görən dedi: bir də görüm Azərbaycan gözəlini,
Qönçə ikən solub getdin, bu dövranda gözün qaldı...

Bir mehriban yoldaş idin – xoş niyyətli, qəlbi təmiz,
Fikri açıq, doğru sözlü, el yanında xətri əziz,
Çox sevirdik, çox sevirik, sevəcəyik Sevili biz,
Gün olmur ki, əziz bacım, düşünməyək səni sənsiz,
Hər ürəyin aynasında gülümsəyən üzün qaldı...

Ləyaqətli bir insandın söhbətində, rəftarında,
Həcərlərin hüsnü vardı ismətində, vüqarında,
Payın qaldı bu il gələn payızın hər nübarında,
Mil düzündən köçüb getdin ömrünün ilk baharında,
Köçüb getdin... Yer üzündə naxış-naxış izin qaldı...

"TƏCİLİ YARDIM" KİMİ

Şəhər tünlük, ləpələnir insan dənizi,
Axşam-səhər işdən gəlir, işə gedirik.
Görüşdürür tanışlarla küçələr bizi:
Kimisinə ehtiramla təzim edirik:

Kimisini – o gülərüz köhnə qonşunu
Görən təki... dayanırıq, qucaqlaşırıq.
Cəmləşdirə bilmir adam bəzən huşunu,
Tül bürünmüş xatirəyə dalıb çaşırıq.

Adlar itir zehinlərdə yol aza-aza,
Sifətlərsə əzəlkitək doğma, mehriban.
Təbəssümlə su çiləyir yaddaşımıza,
Tanıyanda qızarırıq pərtlikdən yaman.

Bəzən yolda rast gəlirsən bir naxələfə,
Bilmirsən ki, hansı səmtə üz çevirəsən?
O uğursuz tanışlığa, o köhnə səhvə
Vida deyə bilərsən kaş birdən-birə sən.

Yeriyirik, həvəsimiz axtarıb gəzir
Uşaqlığı, cavanlığı, dostu-həmdəmi.
Nəyə isə, kimə isə könül müntəzir –
Görüşlərdir baxışların şadlığı, qəmi.

Biri gəlir addımını tez ata-ata,
Yerişində, baxışında, gözündə qayğı.
Çətin gündə, dar məqamda yetişir dada
Bir "təcili yardım" kimi xeyirxahlığı.

Onu görcək yaddan çıxır dərdim-məlalım,
Onu görcək alovlanır inam məşəli.
Elə bil ki, həddən aşır dövlətim-malım
Əllərimdən yapışanda onun mərd əli.

Tanıyanlar yaxşı bilir o şəxs kimdi, kim:
Xalqımızın ədib oğlu Əli müəllim!
Ürəyimiz sakit olar, yolumuz hamar
Çıxsa hər gün rastımıza belə adamlar.

XEYİRXAHIN İNTİQAMI

Xeyirxahın intiqamı yamanmış –
Əlinə "girəvə" düşəndə gördüm.
İnsanı xəyala-fikrə salanmış,
Dadıma yetdikcə çoxaldı dərdim...

Cavanlıq çağlarım gəldi yadıma,
O zaman yatmazdım heç ipə-sapa.
Nə qədər öcəşər adam adama?! –
Haqq-nahaq kişini tutardım topa.

"Mən"li məclislərdən bəzən qaçardı,
Salmışdım yazığı lap dilə-dişə.
Hərə bir hədəfə atəş açardı,
Mənsə mat-mat baxan o kirimişə.

Tənqidin hər sözü, cümləsi nizə,
Süzərdi üstünə hey yağa-yağa.
Susardı nahaq qan çıxsa da dizə,
Necə qoşulaydı "uşaq-muşağa"!

Dilbilməz önündə abrını atıb,
Necə danışaydı, necə dinəydi?
Madam ki, nəcabət fövqünə çatıb,
Dərənin dibinə necə enəydi?! –

Mənalı sükutu odlardı məni,
Onu "fasıq" deyə qaralamışdım.
Təhqir də edərdim izzət-nəfsini,
Qəlbini yüz dəfə yaralamışdım.

Zaman ayırd etdi haqqı nahaqdan,
Mənə başa saldı qəbahətimi.
Zirvə mövqeyindən o nəcib insan
Uzatdı əlini mənə dost kimi!

Bəzən görüşməkçin gircək otağa
Durub qucaqladı... sonra gəldi çay...
Bəzən uşaq kimi düşdü qabağa,
Kilidli qapılar açıldı tay-tay...

İndi vəzifənin ümdəsi onda –
Dedi: "Nə sözün var, buyur sirdaşıq!"
Müşkül düyünlərin düyməsi onda –
Üzümə hər yanda yandı göy işıq.

Hər nə arzuladım, göstərişilə
Dərhal hazır oldu nağıldakıtək.
"Bəlkə töhmətləyir məni o, belə..."
Düşündüm, daşındım fikrə gedərək.

Bəlkə hörmət deyil, məzəmmət edir –
Sərinlənən odur, odlanan mənəm,
Bəlkə belə deyil, bəlkə belədir –
Şübhə ocağında o yanan mənəm.

Xeyirxahın intiqamı yamanmış –
Əlinə "girəvə" düşəndə gördüm.
İnsanı xəyala-fikrə salanmış,
Yaxşılıq gördükcə çoxaldı dərdim...

YAXŞI ADAM

Darıxırdım, yol yoldaşım
Köməyimə çatdı mənim.
Dərin ağlı, kamaliylə
Ürəyimə yatdı mənim.

Onun duzlu söz-söhbəti
Körpü saldı uzun yola.
Öz-özümə dedim ki, kaş,
Beləcə beş dostun ola.

Nur vermişdi baxışına
Yurdumuzun od-ocağı.
Ağır eldən götürmüşdü
Mərifəti, qanacağı.

Qara çörək şəkər dadar
Onun ilə yesən yavan.
Ayrılanda tərs kimi biz
Vermədik də barı ünvan.

İndi onsuz darıxıram,
Həsrət sıxır ürəyimi.
Könlüm onu arzulayır
Əlli ilin dostu kimi.

Şəhər böyük, insanlar çox,
Hara atdı onu külək?
Küçələri dolaşıram
Əzizini itirəntək.

Axtarıram, ələk-vələk
Eləyirəm izdihamı –
Elə bil ki, tək mən deyil,
Gəzir onu, gəzir hamı...

HALAL ÖMÜR

Xəlil Əlimirzəyevə

Biz sənինlə bir süfrədən
Bir pud çörək-duz yemədik,
Sədaqətin ünvanına
Günaşırı tost demədik.

Ayda, ildə rastlaşırıq
Yol üstündə, təsadüfən...
Səni əziz qardaş sanır,
Dost bilirəm bəs niyə mən?

Bu sualın cavabını
Verir əzmin, mətanətin,
Çoxlarına məktəb olan
İnsanlığın, ləyaqətin;

Millətinin nişanəsi –
Mərd sifətin, kişi sözün,
Açıq alnın, pak əməlin,
Xoş məramın, güləр üzün...

Bu səbəbdən könlüm, gözüm
Görüşünü edir bayram.
Səni görcək itirdiyim
Yüz sevinci mən tapıram.

Sanki qərib bir insanam
Qovuşuram tanış elə,
Sən küçənin o başında
Görünəndə gülə-gülə.

Elə bil ki, bir dağ çayı
Çəmənliyə hopub gəlir,
Torpağımın bir parçası
Məhvərindən qopub gəlir.

Dost görəndə kövrəkləşir
Ürəyimdə el həsrəti,
Qucaqlaşır xəyalımda
Yurdumuzun dörd cəhəti –

Qərbi, Şərqi qol-qoladır,
Cənubunu qucur Şimal,
Çiçək atır bir-birinə
Bar götürür neçə mahal.

Bir cəhəti Qarabağdır;
Bir cəhəti Gəncəbasar;
Bir cəhəti Şahdağıdır –
Keçilməyən uca hasarı.

Bir cəhəti Xəzər boyu
Abşerondur, Mil-Muğandır,
Bu dörd cəhət – bu dörd qardaş
Bir-birinə mehribandır.

O ülfətin bayramıdır
Bu təntənə, bu toy-düyün,
Bundan böyük feyz olarmı
Mənim üçün, sənin üçün!

Elimizin bu cür təzə
Birliyinə əhsən, əhsən,
Var ol, Xəlil, gəlmə gözə,
Xəritəmdə dörd cəhətin –

Bu dörd dostun biri sənsən!
Azərbaycan torpağından
Yığıb ətir, yığıb şirə
Öz yuvandan – Şah dağından
Pərvazlandın üfüqlərə.

Yarım əsr yol gəlmisən,
Şad etmisən vətənimi.
Bir belə də halalındır
Öz ananın südü kimi.

SƏFƏRƏ ÇIXAN KÜÇƏLƏR

Akademik, memar Mikayıl Hüseynova
ithaf edirəm

Şəhərdə fikirli bir insan gəzir,
Yerişində məna, gözündə məna.
Onun görüşünə durub müntəzir
Xəyalında doğan hər təzə bina!

Atır addımını canlı heykəltək,
Muzeylər, meydanlar pişvaza çıxır.
Möhtəşəm saraylar əl cyləyərək
Mehriban-mehriban dalınca baxır.

Bünövrəsi möhkəm, yarımçıq evlər
Onun nəzərində sağlam uşaqdır –
Zəhmətlə, diqqətlə böyütsən əgər,
Yüz illər ömr edib yaşayacaqdır!

Qala var, məbəd var min illər qabaq
Tikilib, qopmayıb hələ bir daşı.
Nə lərzəyə gəlib üstündəki tağ,
Nə də ki, pozulub əlvan naxışı.

Yox ikən bəşərin kağız-qələmi
Öz ürək sözünü daşlara yazmış.
Sevinci, fərəhi, dərdi, ələmi
O, sərt dırnağıyla daşlara qazmış.

Ötən əsrlərdən qalan yadigar –
Şirin bir hekayət, bir kitabədir.
Hər güllə, hər kərpic, hər sədd, hər divar
Babadan nəvəyə gələn namədir.

Oxuya-oxuya bu nameləri
Dağüstü parkında gəlib dayanır.
Bakı bir dastandır, səhifələri
Memarın gözüylə nura boyanır.

Şəhər – min bir əllə yazılan kitab,
Onun da burada qızıl xətti var.
Hər təzə qapıdan boylanıb məhtab
İlk dəfə, ilk dəfə onu salamlar!

Ev var, cazibəli bir roman – əsər,
Doymazsan yüz dəfə azı oxusan.
Solğun bir lövhədir zövqsüz evlər,
Meyl etməz üzünə baxmağa insan.

Bakını, bu gözəl, zəngin mirası
Nəsildən-nəsilə yetirmək üçün
Onun neçə-neçə solğun misrası
Pozulub, yenidən yazılır bu gün!..

Şəhərdə fikirli bir insan gəzir
Yerişində məna, gözündə məna.
Yöndəmsiz evləri xəyalən əzir,
Kibrit qutusutək atır bir yana.

Basırıq məhlələr çəkilir geri
Dönməz addımlarla o yeriyəndə.
Vahimə bürüyür dar küçələri
"Sökülsün!" sözünü qəti deyəndə.

Günəş qüdrəti var baxışlarında –
Haraya zillənsə saray bitirir.
Alimlər evinin naxışlarında
Əsrdən əsrə nişan yetirir.

Neftçilər naminə ucaltdı bina –
Hər mənzildə sənət çırağı yansın.
Dibçəklər, vazalar düzdü eyvana,
Dedi zəhmətlə gül qoşa dayansın!

Baxıb qəlb evinin yoxsul küncünə
Bunlara ağzını əyən də oldu.
İncə sütununa, gözəl bürcünə
"Lüzumsuz bərbəzək" deyən də oldu.

Əsər eyləmədi bu söz memara,
Gec-tez cavabını o, verəcəkdi.
Bir kəlmə demədən o, bədxahlara
Abidə evlərlə göz dağı çəkdi.

Yuxarı məhlədə Elm şəhəri
Dinib-danışmayan memar səsidir.
Öz ana yurdunun zövqü, hünəri,
Əqli, kamalının abidəsidir!

Baxır zər pəncərə necə nazəndə!
Danışır insanla zəhmətin dili.
Güşə daşlarına çiçək düzəndə
Quştək qanadlanır bənnanın əli.

Bu dönməz qanundur – belədir qismət:
Tikdiyi ev qədər yaşamır bənna.
Sabahkı evlərdən yetişir fəqət
Əhsən sədaları qulaqlarına!

Binalar həmişə sabah ünvanlı,
Sabaha göz dikir, fəcrə göz dikir.
Odur ki, darısqal, alçaq tavanlı
Evlər sahibindən xəcalət çəkir...

De, daşın-torpağın nədir günahı?
Ona həyat verən insandır, insan!
Ev var qarşılayıb milyon sabahı,
Neçə yüz ilə də çatacaq asan.

Hər bina – vaqondur, hər küçə – qatar,
Səfər gələcəyə, əsrlərədir.
Sonuncu mənzilə uğurla çatar –
Üstüylə memarın xəyalı gedir...

O, yaxşı bilir ki, həmin qatara
Hələ neçə nəsil minib düşəcək.
Ötdükcə zamanı o, yara-yara
Ləngiyib qalmasın yollarda gərək!

SULARIN LAYLASI

Bir suçu yol boyu arx qaza-qaza
Axır bu gün gəlib bostana çıxdı,
Tağlar, o demişkən, durdu pişvaza,
Ona təzim etdi, əlini sıxdı.

Dalınca şütüdü sular şırhaşır,
Gülüb-şaqqıldadı nəsə deyərək...
Köpüklü ləpələr gah pıçıldaşır,
Gah zümzümə edir şirin laylatək.

Suçu yorulmuşdu, dincəlim deyə
Arx üstə əyləşib sulara baxdı,
Sonra yavaş-yavaş getdi mürgüyə,
Çiyni ağırlaşdı, gözləri axdı...

Kəsdiyi bir çimə qoydu başını,
Ona layla çaldı titrək ləpələr.
Yumşaq görməmişdi nazbalışını
Suçu ömrü boyu bəlkə bu qədər.

Hər su şırıltısı – bir gözəl mahnı,
Ürək söhbətiydi, ürək sözüydü.
Ona dincəl deyən həmin laylanı
Çöllərə gətirən onun özüydü.

"GƏLİN ATLANDI"

Qollar rəqs eləyir, baxışlar gülür,
Ürəklər çırpınır başqa büsatla.
Başdan çiçək yağır, çiçək tökülür,
Ovuclar sevinir qəndlə, nabatla.

Özgə vaxt yerindən dura bilməyən
Nənə, quştək süzür yüngül havaya.
Cavanlıq eşqiylə bir ağız deyən
Babanın da gedir səsi o taya.

Hazır dayanıbdır çöldə maşınlar,
Gəlini gözləyir bir təzə "Volqa" –
Onun da əynində toy libası var,
Bürünüb qumaşa, əlvan yaylığa...

Muğamın burdakı təranəsini,
Sazı, kamançanı bilmə əyləncə –
"Gəlin atlandı"nın dinlə səsini,
O, hikmət danışır ahıla, gəncə.

Adı köhnəlsə də, onun mənası,
Xalları, rəngləri təzədir bu gün.
Yanar bir nəfəsdən qopan nidası,
Hər sözü-söhbəti bizədir bu gün.

Deyir: "Müqəddəsdir bu köç, bu şənlik,
Aləm uğur söylər sənə, a gəlin!
Olsun başdan-başa güllük-gülşənlik
İlk qədəm basdığın təzə mənzilin.

Səni bir köhlən at, bax, qaça-qaça
Aparır ən şirin arzuna sarı.
Lakin belə yeyin, belə rahatca
Keçilmir, əfsus ki, ömür yolları.

Bu yol enir düzə, qalxır yoxuşa,
Kol-kosdan adlayır, dağa dolanır.
Dəyir köhlən atın dırnağı daşa –
İnsan vaxt olur ki, piyadalanır.

Gərək bezməyəsən... ömürdü-gündü –
Onun gecəsi də, gündüzü də var.
Demə həyat belə toydu – düyündü,
Onun bəd üzü də, xoş üzü də var.

Keçir öz ərinlə ömrü mehriban,
Hər ayaq yeriniz bir gül bitirsin.
Eşqiniz bu təzə evdən başlayan
Gələcək nəslə də vüqar gətirsin".

"BİRİNİZ OD, BİRİNİZ SU..."

Oğul evləndirib qız köçürənlər
Təzə duyğularla qol-boyun olur.
Qisməti səadət olsa nə qədər
Ürək kövrəkləşir, göz yaşla dolur.

Nikahın müqəddəs zəmanətidir
Atanın-ananın xeyir-duası.
Bir arzu meyvəsi, əmanətidir
Yamyaşıl budaqda o "quş yuvası".

Var olsun istisi, cəh-cəhi onun,
Sahibləri bir an perik düşməsin...
Nəsihət də qanun, arzu da qanun,
Fərmantək qətidir hökmü bu səsin:

"Ərənlər sözüdür, eşitsin gəlin,
Assın qulağından bunu oğlan da:
Biriniz buz kimi suya çevrilin,
Biriniz kükrəyib atəş olanda..."

Udduq nəsil-nəsil bu nəsihəti.
Dinləyib baş əydik biz duya-duya.
Olsun ər də müti, arvad da müti!
Dönsün biri oda, o biri suya...

Bir deyən olmadı: kömür olacaq
Axı, köz üstünə su töküləndə?!
Bir deyən olmadı: qalayın ocaq
Ömrün üfüqündə dan söküləndə.

Biriniz od tökün, biriniz alov,
Taleyin sübhünü işıqlandırın!
Çalın çaxmaq daşı, alışdırın qov,
Nəsillər yolunda məşəl yandırın!

Bir deyən olmadı: olun çay, nəhr,
Qarışıb çağlayan Kür – Araz kimi,
Duyğu dalğaları olsun pələng, şir,
Ömrünüz leysanlı – gülər yaz kimi...

Həmdəmlər ayrılıb, çevrilməsin, yox,
Birisi atəşə, birisi suya.
Məhəbbət hələ çox, arzu hələ çox –
Dönməsin kösövə, sönən duyğuya.

Birlikdən yoğrulsun təbiətiniz –
İkiniz də ya su, ya od olun siz.
Qovuşub yetişin hər ülviyyətə –
Ümmana, günəşə, əbədiyyətə.

ANA VƏ BALA

Əliylə təkərli yüyürük tutan
Gənc ana mənimlə gəldi üz-üzə.
Mən onu diqqətlə süzdüyüm zaman
Körpə dönüb baxdı hər ikimizə.
Gəlinin olmadı bundan xəbəri,
Onun yüyürükdəydi qara gözləri...

Məktəb yoldaşımı tanıdım dərhal.
Yanaşdım tutmaqçün ondan hal-əhval:
– Salam! Zəhra bacı!
Döndü gənc qadın...
– Xoş gördük!
– Xoş gördük! Nə tez tanıdın?
– Bacı-qardaşlığı unutmaq olar?
Çəkdi ötən günə məni duyğular...
Məktəbə birlikdə gedib gəlmişik
Bu qonşu qızıyla on il sərasər.
Bizi qardaş-bacı bilmişdir çoxu,
Hanı o uşaqlıq, hanı o illər!
Məktəb paltarını soyunmuş artıq,
Daha şıq geyinib-gecinmiş bu gün:
Çiynindən başına çəkdiyi yaylıq
Üzünə ciddilik vermiş büsbütün.
Qəlbən bağlansa da bu qadın elmə,
Coşdurur könlünü analıq hissi.
Daha yaxşı yazıb yaratmaq üçün
Yeni bir ruh verir ona körpəsi...
Bu körpə dünyaya gələndən bəri
Odur gecə-gündüz söhbəti, sözü.
Görür varlığını, hissini onda,
Elə bil təzədən doğulmuş özü.
Lakin, gizli deyil, o gənc ananın
Üzündə əvvəlki şölə azalmış.
Çevik hərəkəti, təbəssümüsə
Qızlıq çağlarından nişanə qalmış...
Bu vaxt maraqlanıb baxmaq istərkən
Onun yüyürükdəydi qara gözləri...
Körpə gülümsəyib uzatdı əlin,
Yanaşdım götürüm....
Bilcək fikrimi
Utandı o nəcib, həyalı gəlin
Doğma qardaşından utanan kimi.
Uşaqsa diqqətlə baxırdı mat-mat,

Elə bil hər şeyi o da qanırdı,
Üzündə Zəhranın lalə yanağı,
Gözündə gözünün odu yanırdı.
Mən fərəh içində diqqətlə süzdüm
Bu xoşbəxt ananı, balanı bir də.
Ana üzündəki gənclik şöləsi
Gördüm ki, itməmiş zərrə qədər də...
Bu gözəl təsadüf ruh verdi mənə.
Bildim, gəncliyinin hər nemətini –
Hüsnünü, odunu, təravətini
Analar bəxş edir öz körpəsinə.

XƏYAL

Çox gəzib, çox dolaşdım yaxın, uzaq yerləri,
Dincəlmədim dünyaya insan gələndən bəri.

Arzulara qanadam, baş çəkirəm göylərə,
Min təmtəraq tökülür qədəmim dəyən yerə.

Həm ötən bir bülbüləm, həm gözəllik sonası,
Səadət aramaqdır uçuşumun mənası.

Bədniyyətlər könlündə necə tutum mən aramı?
Sağlam ruhlar qoynunda min bir büsat quraram.

Bəzən gileylənirlər qəlbləri yaxmağımdan,
Əməlindən utansın məndən narazı insan!

"Şirin xəyal" desinlər mən pərinin adına,
İntizarın təbibtək mən çatıram dadına.

Səngərdə bir yaralı sızlasa ağrılardan,
Ya da ki, nişanlı qız soraq bilməsə yardan,

Könüllərə ruh verən qanadlarım açılar...
Məndəki mənalarda gələcəyin hüsnü var.

GƏL, QUCAQLAŞAQ!

Qələbə qartalı bir qanad açdı,
Səadət dünyaya min şölə saçdı.

Qanovuz boyandı səhərin rəngi,
Dəyişdi nəğmənin, şerin ahəngi.

Özgə məlahətlə oxudu kəklik,
Bu günü hər yerdə biz bayram etdik.

Şiş dağlar başının tacı qar gülür,
Qardaşı qayıdan bacılar gülür.

Dərd-qəm başdan aşdı, demirəm nahaq,
İndi gəl, sevgilim, gəl qucaqlaşaq!

Vətən toy libası geyinir bu gün,
Başlanır şəhərdə, kənddə toy-düyün.

Körpə qatilləri çəkilir dara,
El haqq məhkəməsi qurur onlara.

Ayrılıq ahları deyilmiş nahaq,
İndi gəl, sevgilim, gəl qucaqlaşaq!

AÇILMAMIŞ KİTAB

Açılmamış kitablar var
Önümüzdə qalaq-qalaq,
Ömrümüzün sabahından
Səhifəsində min-min soraq.
Açılanda səhifələr
O sehrli hərfləri
Yola düşür qatar-qatar;

Hər birində əsrin sirri,
Atom gücü, qüdrəti var.
Asan deyil hər yetənə
Sözlərini höccələmək.
Oxumaqçın əsrə layiq
Bilik gərək, savad gərək!
Açılanda səhifələr
Günəş çıxır, şəfəq yağır.
Qapananda kölgə enir
Yer üzünə ağır-ağır.
Açılanda bu güzgüdə
Bir görürük
yurdumuzu,
özümüzü.
Qapananda – nəşələrlə
Qapayırıq
qapımızı,
gözümüzü.
Açılanda – cərgələnir
Min təzə ev, təzə bina
Ölkəmizdə
qarış-qarış.
Qapananda,
yüz peykimiz
Cövlan edib
Göy üzünə
ulduz taxır
naxış-naxış.
Açıldıqca bu kitablar
Hər sətrindən bir iz qalır.
Ya alına qırış düzür,
Ya saçlara o, dən salır...
Bu hikmətli cildlərdən
Oxumuşam qırx birini.
Onlar mənə açıb demiş
Bu dünyanın çox sirrini.

Onlar ömrün zinətidir,
Mən onlara çox möhtacam.
Bilməyirəm indən belə
Neçəsini oxuyacam?
Bilməyirəm, bilməyirəm
Bunu ancaq –
Kitablardan neçəncisi
Gözlərimin qarşısında
Əbədilik qapanacaq?!
Fəqət hələ oxuyuram,
Kitablardan biri bitir,
Çevirirəm səhifəni,
Çevirirəm aram-aram.
Oxumağa dəvət edir
Təzə kitab yenə məni.
Bu kitab da ağırlıqda
Silsiləli uca dağdır.
Qalınlığı, həcmi yenə
Üç yüz altmış beş varaqdır
Oxuduqca zirvələrə
Çəkəcəkdir kamal səni.
Yüz sehrli məna bəzər
Burda hər bir səhifəni.
Təzə kitab – təzə duyğu,
Təzə ömür, təzə sözdür.
Təzə kitab – iti sürət,
İti baxış, iti gözdür.
Təzə kitab – qəşəng arzu,
Qəşəng uşaq, qəşəng nəsil!..
Təzə kitab – gözəl nemət,
Gözəl iqlim, gözəl fəsil!
Təzə kitab – millətlərin
Təzə zəfər dastanıdır.
Təzə kitab – ağ yalana
Qara zənci üsyanıdır!
Təzə kitab! İnsanlığa
Güclü bədən,

Güclü qanad,
Güclü qoldur,
Təzə kitab!.. Misraları
Ulduzlara gedib çıxan
Açıq yoldur!
Önümdədir
Təzə kitab!
Onda əsrin neçə-neçə
Düyününə, sualına
Yazılmışdır təzə əlac,
Təzə cavab!

İZLƏNƏN KÖLGƏ

Maşında üç adam vardı:
Ata, ana, bir də uşaq.
Onlar bağdan qayıdırdı –
Kefləri kök, damağı çağ.

Əl çəkmədi nadinc oğul,
– Ver maşını sürüm, – dedi.
Atası "qul", anası "qul" –
Sözü yerə düşdü nədi...

Keçdi sükan arxasına,
Uşaq ola, maşın ola –
Papağını əydi yana,
"Volqa" süzüb çıxdı yola.

Dəmir atın, qığılcım yox,
Toz qoparır rezin nalı.
Ata, ana uğundu çox
Kişnədəndə o, siqnalı.

Yol boyunca görə-görə
Saymadı da bir yazını –
Bilərəkdən neçə kərə
Pozdu ötmə qaydasını.

Ayağını basıb qaza,
Vəcdə gəlib o coşurdu.
Neçə-neçə qanlı qəza
Öz-özünə sovuşurdu.

Elə bil ki, yerin, göyün
Ağasıydı bu ərköyün...
Bir motosikl ötüb keçdi,
Dövrə vurub döndü geri.
Yayınmaq da daha gecdi,
O, gəlirdi üzübəri.

Müfəttişin qırğı gözü
Seçmiş idi bu dəcəli
Qəzəbindən yandı üzü:
– Dayan! – deyə qalxdı əli.

Yana çıxıb, mühafizə
Daşlarını vurdu maşın.
Göy şivləri əzə-əzə
Silkələnib durdu maşın...

Üç qarış da getsən, səni
Bir qırpımda udar nəhəng –
Dərə geniş cəhəngini
Açmış qorxunc əjdahatək.

Mat qalmışdı bu "cürətə",
Neçə ağır fəlakətə
Şahid olan o müfəttiş:
"Qurd üreyi, yəqin, yemiş

Hamılıqla bu ailə,
Yoxsa, axı nədən belə
Gözlərini yuma-yuma
Atılırlar uçuruma?!

Ay atalar, ay analar,
Ömrün sizə sualı var:
Başa salın görək bizi
Uşaq hara, maşın hara?!

Axı, niyə bəxtinizi
Tapşırırsız siz onlara?!
Ərköyün hər yana çapır,
Yığın onun cilovunu!
Vaxtsız ölüm azmı tapır
Bu yollarda öz ovunu?!"

Düşünsə də qəzəblə o,
Yaxınlaşıb ədəblə o,
Təzim etdi...
Bir uşağa,
Bir ataya nəzər saldı.
Sənədlərə baxa-baxa
Sual verdi, cavab aldı.

Cərmələdi, töhmətlədi,
"Gedin!" – dedi.
Maşın getdi,
Gözdən itdi.

İçində üç adam vardı:
Ata, ana, bir də uşaq.
Onlar evə qayıdırdı
Kefləri kök, damağı çağ.

Lakin o vaxt, bilsən necə
O müfəttiş narahatdı.
Həmin günü bütün gecə
Nə dincəldi, nə də yatdı.
Rast gəldikcə, uşağına
Maşın-sükan verənlərə,

Onun hər bir şıltağında
Sevinc, nəşə görənlərə –
Çoxalırdı saçında dən...
Getməyirdi göz önündən
O qorxulu, o qüssəli,
O dəhşətli mənzərələr.
Sükandan bir naşı əli
Tutsa etməz nələr, nələr...

O nə isə deyə-deyə
Göz qoyurdu hər döngəyə,
Göz qoyurdu hər bir tinə –
Yayınmırdı diqqətindən
Xam sürücü, nasaz maşın.
Düşünürdü: "Taleyinə
Hər ailənin, vətəndaşın
Cavabdehəm yollarda mən..."

O, görürdü yol boyunca:
Tay qanadla uça-uça
Qara, qorxunc kölgə gəzir,
Bəlkə gəzir
O dəcəli o naşını,
Göy maşını.

Müfəttişsə yolu möhkəm
Gözləyirdi.
O, kölgəni qədəm-qədəm
İzləyirdi,
İzləyirdi bir külfəti
Təqib edən fəlakəti...

GƏLİR BAHAR, GEDİR BAHAR

Payız hələ girməmişdən
Xəzan yeli gəzmiş bağı.
Gül ləçəyi olub dən-dən
Saralıbdır tut yarpağı.

Son baharın sirdaşıtək
O görünən kimdir yalqız?
Oturmuşdur boyu gödək,
Tikiş tikən bir qara qız... .

Ah, necə də kobud, çirkin
Sifəti var o yazığın.
Təbiətə qarşı bir kin
Çöhrəsində yığın-yığın.

Gözləri çaş, burnu yekə,
Əl-ayağı kösöv kimi;
Yanaqları ləkə-ləkə...
Sıxdı bu dərd ürəyimi.

Təbiətə olsun eyib!
Yaratdığı qızdır, axı.
Atsan ona, "dəhşət!" deyib
Geri dönər eşqin oxu.

(Aşıq demiş, gözəlsiz ev
Viran qala gərək bir gün.
Sevəndə də o kəsi sev,
Hüsnü dildən-dilə düşsün).

Ah, görəsən tale niyə
Qarğıyıbdır bu insana?!
Oxuyurdu "bahar..." deyə
Asta-asta, yana-yana.

Heyrət etdim, bu nə işdi,
Xəzan vaxtı deyil məgər?
Dizi üstə sərilmişdi
Şehli güllər, bənövşələr...

Yaşıl ot da çıxmış dizə,
Lalə, nərgiz bir qucaqdı.
Sordum: – Nədir bu möcüzə?
Həya ilə dönüb baxdı.

Durub çırpdı ağ kətanı,
Əlvan dəstə dağılmadı –
Mən seyr etdim gülüstanı,
İynəsini o sapladı.

Kösöv kimi odlu əllər
Gəzdikcə ağ kətan üstə –
Qar əridi, təzə güllər
Çıxdı yenə dəstə-dəstə.

Bu tər gülü, tər çiçəyi
O toplamış ürəyindən.
Toxumuşdur hər ləçəyi
Arzusundan, diləyindən.

Payız hələ girməmişdən
Xəzan yeli gəzmiş bağı.
Gül ləçəyi olmuş dən-dən,
Saralmışdır tut yarpağı.

İlk baharın sirdaşıtək
O görünən kimdir yalqız?
Ağ kətana çiçək-çiçək
Naxış salır bir gözəl qız.

Gəlir bahar, gedir bahar,
Hər nemətі xəzan olur;
O gözəllik, o naxışlar
Nə saralır, nə də solur...

HƏKİM XƏSTƏLƏNDİ

Döşündə zəhərli gürzə nişanı,
Fikrində bəşərə – insana hörmət,
Əlində növbənöv şəfa dərmanı,
Gözündə, qəlbində, dilində şəfqət

Kənd-kənd, şəhər-şəhər, evbəev gəzən,
Bir dərdi tapmaqçın min dərdə dözən,
Yolunu arana, dağlara salan,
Hər vaxtsız əcəlin üstünü alan

Həkim xəstələndi... yatağa düşdü.
Oldu bircə gündə canından bezar.
Onun bu halına sanki gülüşdü
Qənim kəsildiyi neçə dərd-azar.

Elə bil döşündə dayanan gürzə
Tərpənib qəfilcə çalmışdı onu.
Zəhər bədənini hey gəzə-gəzə
Sağalmaz bir dərdə salmışdı onu.

Titrətmə, üşütmə sardı həkimi,
Göynədi ağrıdan çiyni, kürəyi.
Qapını tələşlə döyənlər kimi
Sinə taxtasını döydü ürəyi!

Ondan gözləyirdi əlacı xəstə,
İndi özü düşüb onun can üstə.
Bilənlər acıdı cavan yaşına,
Təbiblər yığıldı onun başına.

Köməyə gəlmədi həblər, iynələr.
Həkim xəstələndi... düşdü yatağa.
Bu xəbər yayılıb getdi uzağa.

Xəbər qanadlandı, hər yana çatdı,
Neçə min ürəkdə təlaş oyatdı.
Şəfa bəxş etmişdi o, neçə gəncə,
O, neçə ataya, neçə anaya –
Qoymamışdı evin işığı keçə!..
İnsanlar axışdı xəstəxanaya
Əlində torpağın əziz neməti:
Kimi bir yasəmən şaxı-dəməti,
Kimisi ilk bağın ilk nübarını,
Kimi ən müqəddəs duyğularını,
Kimi könülaçan şer gətirdi.
Elin alqışını ona yetirdi.

Kimisi də sovqat verdi qanını.
Kiminin əlacsız çatıldı qaşı.
Kimisi qurban da dedi canını,
Dərman damcısı tək axdı göz yaşı.

Uzatcaq əlini neçə min insan
Elə bil boğuldu döşündə ilan! –
Bu qüdrət önündə azar əridi,

Həkimin gözündə həyat çağladı,
Qəhərdən özünü güclə saxladı.
Görənlər sevindi: "Üzü bəridi..."
Fərəhdən qəlbində coşdu ümmanlar,
Yox oldu təşviş.
Bir vaxt o həkimdən şəfqət umanlar
Şəfqət gətirmiş –
Yetişdi həkimin dərdinin sonu,
Öz eşqi, əməli sağaltdı onu!

GƏLƏCƏYƏ ATLANIŞ

Ötür şirin illər-əriyən illər,
Əsrdən əsrə keçmək gümansız.
Ömür iltimasda, zaman amansız
Nəsillər qeyb olur. Yaşayır bəşər!

Qalır qoltuğunda atanın əli,
Ümid şölələnir qəlbində fəqət
Xəstə övladının dərdindən dəli...
Çarəsiz qalanda həkim, təbabət

Verir boyrəyini, verir gözünü –
İnsan... gələcəyə atır özünü

BU İL

Bu il də an idi keçdi-ötüşdü,
Zaman ümmanına bir damla düşdü.
Damla – an cücərən alın təridir,
Torpaqdan süfrəyə çatdı pay kimi.
Damla – an iksirdir, bəxti əridib
Kiminə içirtdi şirin say kimi.

Kiminin ömrünü bəzədi bu il,
Kiminə yerində sayılan addım,
Kiminə ilkindi-təzədi bu il,
Kiminin ömrünə qıyılan addım...

DOĞRANAN GÜNLƏR

Kəsir ömrümüzü min qayğı-qayçı
Doğram-doğram olur bütöv günümüz.
Qovur ora-bura vaxtın qırmancı,
Dözürük, heç yana çıxmır ünümüz.

Dözürük anlardan, gündən, həftədən,
Aylardan cəm olub... itən illərə.
Boz sifət göstərmək gərək siftədən
Ömrü didən günə, didən illərə!

Saatlar ayrılıb ikibir, üçbir
Səbirsiz-səbirsiz bizi gözləyir.
Bəzisi həftədə on dəfə yasa,
Bəzisi qəfləti vaya çağırır.

Bəzisi beş yerdə duzsuz iclasa,
Bəzisi nəşəyə, toya çağırır.
Təşvişlə bildirir hərdən bəzisi:
" – Zaçotdan kəsilib bibin nəvəsi..."

" – Deyirlər, xalanın oğlu ilişib!? –
Tez çatdır özünü, milisə düşüb"
"Oğlunu "Artek"ə göndərmək üçün
Arayış yığasan gərək bütün gün..."

"Seylon çayı gəlib dükana, tərpən,
Almayıb qayıtsan deşilər təpən..."
" – Qaynanan tumovdur, ay aman, tədbir,
Yamanca hirslənib, tez həkim gətir!"
Saatlar qışqırır, haray qoparır,
Səni qabağına qatıb aparır.
Bəzən də qəbulda vaxtın öləndə,
Yelbeyin əqrəblər bunu biləndə

Çıqhaçıq salırlar hey gülə-gülə:
"Səbr elə, səbr elə, hələ səbr elə..." –
Günün saatları ikibir, üçbir.
Beləcə dayanıb bizə müntəzir –

Qələmə, masaya qoymayır yaxın.
Hər gün doğranırıq, xırdalanırıq,
Zaman axıb gedir, biz dayanırıq,
Mərəzə çevrilən vərdişə baxın!

AĞ SAÇLARIM

Bir gözəl üzümə dedi: qocasan...
Gözümdən, könlümdən uzaqlaşdı yaz.
Yayın körpüsündən keçərkən asan
Dayandım, səs gəldi: yubanmaq olmaz!

Önümdə payızmış dayanacağım...
"Nə tez külə dönür odum-ocağım?" –
Düşündüm, yoluma davam edərək.
Düşündüm, tutulub fikrə gedərək
Saçımın ağını, qarasını mən,
Qəlbin təzə-köhnə yarasını mən.

Nə oldu səbəbkar, kim oldu qənim,
Niyə tez ağardı saçlarım mənim,
Axı ağ günlərim az olmamışdır?
Fəqət hər ağ saçın var hekayəti:
Bəzisi ağ güldür, ömrə naxışdır,
Bəzisi andırır ilk məhəbbəti.
Bəzisi – gümüşü "dövlət tüküdür",
Ağ saç papaq altda qeyrət yüküdür –

Qabarır qeyz ilə üzü yuxarı
Tapdanan görəndə namusu, arı.
Baxdıqca Araza dərd çəkə-çəkə
Gicgahda çoxaldı o çəngə-çəngə.

Bəzisi vay səsi, şivən səsidir,
Qara kağızların nişanəsidir.
Bəzisi atamdan ilk yadigardır –
Məzarına düşən birinci qardır.

Olsa uşaqlardan bir xəstələnən
Tökülər sırsıra saçıma dən-dən.
Bəzisi bir bölük yetim qayğısı,
Onların bəxtinə yazılan yazı.

Payı az olmadı bir gözəlin də
Qaxanda ağ sacı başıma gündə.
Küsdürdü, sındırdı kövrək qəlbimi,
Mən yaşda olsa da dedi: qocasan,
Qəlbi, qanacağı, niyyəti kimi
Saçları qapqara qalan o insan...

ÜRƏKDƏ ÇAPIQ

Xata çıxdı əlimdən,
Saymazyana daş atdım.
Dilbilməyən körpənin
Mən alnını qanatdım...

Qızıl qanı bir anda
Sifətini bürüdü.

Mən yamanca tutuldum,
O, ağlayıb kiridi.

Sakitləşib güldü də
Ciyərimin parası.
Həftə keçdi, büsbütün
Yaxşı oldu yarası.
İllər ötmüş, unuda
Bilməyirəm o dağı –
Daha itmiş görsəm də
Alnındakı çapığı.
Yox o, çapıq itməmiş,
Onun gizli yeri var –
Mən öləndə yarsanız
Ürəyimdən tapılar...

KASA MARE

Qonaq gəldik Yer üzünə,
köçəcəyik.
Cəfər deyən o "badədən"
içəcəyik.

Fəqət necə qəbul etdi,
deyin bizi,
Qonaq evi – bu gen dünya
oxşadımı qəlbimizi?

Lütfkarmı ev sahibi –
bəşəriyyət?
Qonağına zəhər verdi,
yoxsa şərbət?

Şad olduqmu rəftarından,
əməlindən;
Baş götürüb qaçdıq yoxsa,
qəm əlindən?

Bu sorğuya cavab vermək
deyil asan –
Razı da var, narazı da
qonaqlardan.
Qonaq evi – qarışıqdır
o büsbütün;
Ev sahibi öz halında
deyil bu gün –
Yadlar olub komasında
şahlıq edən.
Gileylidir bu dünyaya
gələn-gedən.

Necə olsun, razı qalsın
təzə qonaq,
qarşılansın, yola düşsün
damağı çağ?

Hanı belə qonaq evi,
biz göstərək,
dünyanın hər guşəsinə
nişan verək.

Bilmiş olar; Kişinyova
yolu düşən,
bir bina var, çölü gülşən,
içi gülşən.

Kasa Mare – qonaq evi,
keç içəri!
Nəvazişlə qarşılayır
gələnləri.

Əyləşməmiş mey süzərək
qədəhinə,
"Xoş gəlmisiz! Xoş gəlmisiz!"
deyər sənə.

Moldaviyanın ən mehriban
oğlu, qızı,
Öz evində babasıtək,
nənəsitək
Nemət süzər süfrələrə
ətək-ətək.
Bu otağa girən razı,
çıxan razı!!

Qonaq gəldik Yer üzünə,
köçəcəyik.
Cəfər deyən o "badədən"
içəcəyik.
Bir nisgili aparmayaq
özümüzlə.
Məhkum görək məhkumluğu
gözümüzlə.

Kaş, hər yanda ev sahibi
qova yadı,
əl-qol açа öz yurdunda
öz övladı.

Bu sahmanda, bu nizamda
qala dünya,
hamı üçün Kasa Mare
ola dünya!

İNSAN MİN İL YAŞARDI

(Ömür haqqında ballada)

Okeanlar, dənizlər
İnsan üçün yaranmış.
Əlvan xalçalı düzlər
İnsan üçün yaranmış.
Şimşək parıltısından
Üzü açılıb gülən
Çənli dağ,
Qayaların döşündən
Damcı-damcı tökülən
Bal bulaq
İnsan üçün yaranmış.

Bol sərvətli, nübarlı,
Gen dərələr-boğçalar,
Qırqovullu meşələr,
Bülbül səsli bağçalar,
Üfüqdəki min bəzək,
Səmadakı min naxış
İnsan üçün yaranmış.

İnsan min il yaşardı
Bu nemətlər içində.
İnsan min il yaşardı
Təbiətin qurduğu
İmarətlər içində.

Yüzündə ilk gəncliyin
Həvəsiylə coşardı,
Beş yüzündə tövşüməz,
Uca dağlar aşardı.
Səkkiz yüzə çatanda
Nə ürəyi vurnuxar,

Nə də ağlı çaşardı.
İnsan min il yaşardı –
Qılıncını duyğular
Çəkməsəydi üstünə,
Həsrət, qeyrət, ayrılıq
Durmasaydı qəsdinə.

İlk məhəbbət cavabsız
Qalanda,
Buta-buta arzular
Solanda
Günlər dönür qayçıya
Elə bil,
Kəsir gənclik çağından
Yüz-yüz il.

Yenə qanı coşardı,
Dağ çayıtək daşardı.
İnsan min yaşardı
Qatmasaydı başını
Ev dərdi, ev qayğısı,
Ata-ana matəmi,
Namərdlərin qisası.
Övlad dağı dağ olub
Əyməsəydi belini,
Silməsəydi ömrünün
Yarı-yarı ilini.

Süzüləndə yetimlər
Baxışı,
Töküləndə tənələr
Yağışı,
Alimlərə nadanlar
Güləndə,
Haqqa, xeyrə şər üstün
Gələndə –

Ağrıları başlayır
Ürəyin,
Zəhər olur təmi də
Xörəyin...

Yad kimsələr yurdunu
Tapdayanda, əzəndə,
"Yersiz gəldi, yerli qaç"
Ədasıyla gəzəndə,
Şan-şövkətli xalqını
Tənə ilə süzəndə,
Candan bezib qəzəblə
Üzərinə onların
Atmasaydı özünü,
Taleyilə barışıb
Yumsa idi gözünü,
İldırımtək başında
Çaxmasaydı el dərdi
Öz gözüylə on əsrin
Büsatını görərdi...

Bəziləri şərəfi
Atanda,
Məsləkini mənsəbə
Satanda,
Üz verəndə ayrılıq
Millətə,
Daş-torpaq da düşəndə
Qürbətə,
El-obanı
dolaşa-dolaşa
Qardaş həsrət qalanda
Qardaşa
Nəbzi itir ara bir
Bəşərin.
Can üzülür cəngində
Kədərin...

Qonşuda vay düşəndə
Çıxmasaydı evindən,
Dostun çətin günündə
Qalmasaydı kefindən,
Darda qalan kəslərin
Yetməsəydi dadına,
Uzaq cəfakeşlərin
Yanmasaydı oduna,
Yaxşılığın zövqündən
Olsa idi bixəbər,
Bədxahlığa köksünü
Etməsəydi heç sipər,
İdmandan özgə bir iş
Görməsəydi bütün gün
Bu dünyaya gəlibdir
Bilməsəydi nə üçün –
Bu minvalla illəri
Əsrləri keçərək
Arsız-arsız açılıb
Yumulardı hər ürək.

Nə yaxşı ki, ömrümüz
Yetişməyir min ilə –
Yaşamırıq bir belə.

NƏNƏM DANIŞQAN OLUB

(*Zarafatyana*)

"Nənəm danışqan olub..." gileylənir nəvələr,
Gündə bir nağıl deyib kiriyərdi əvvəllər.
İndi girəvə düşcək fövtə vermir fürsəti,
Qurtarmaq da bilməyir başladığı söhbəti.
Bir xatirə yumağı açıldımı... gedəcək.
Ortada bir xal vurub kəssən, böyüzm edəcək;
"Ağzımızı açmağa macal vermir qırılmış".
Çözələnir söz sapı gecə-gündüz, bahar-qış.

Bir də gördün gah toydan, gah "front"dan başladı,
Ya pambığa darışan malı necə daşladı...
Bəzən olur sağolmuş yaddaşda aza-aza
Ərşə-kürşə baş vurub gedib çıxır kosmosa.
Lazım gəlsə futbola, siyasətə qarışır,
Yaxın Şərqdən söz salıb Kisincerdən danışır.

Hansı təbibsə deyib: "Çox danışan çox yaşar".
Bu kəlamda nə isə ağlabatan məna var –
Danışdıqca azalır, elə bil ki, dərd-qada,
Yüngülləşir silah da gülləni ata-ata.
Belə isə, de gəlsin, xətrinə düşən zaman,
Kimdən, nədən istəsən, danış, danış, nənəcan!

ANAMGİLDƏDİR

Şirinli-acılı ömür keçmişəm,
Yaxşını, yamanı görüb seçmişəm,
Evli-eşikliyəm, var işim-peşəm...
Uşaqlıq həsrəti anamgildədir.

Ürək ağrısına hey dözə-dözə,
Duranda nadanla bəzən üz-üzə
Bir səs eşidirəm: "Oğul, gəl bizə..."
Dizimin taqəti anamgildədir.

Neçə anaya da anam anadır,
"Aləm bir yanadır, o bir yanadır".
O açan süfrədə şor da bal dadır,
Ağzımın ləzzəti anamgildədir.

Gəlinin, yeznənin bilir yerini,
Çəkir qardaş-bacı dərdi-sərini.
Ərköyün böyüdür nəvələrini,
Hər kəsin qisməti anamgildədir.

Qızına bilmirik oduna qazın:
Havası isinmir otağımızın.
İndi duyuram ki, ocağımızın
Közü-hərarəti anamgildədir.

Ömrün qar fəslidir, ağarıb saçım,
Məni ata bilir qardaşım, bacım,
Çətində mən kimin yanına qaçım –
Ata şan-şövkəti anamgildədir.

* * *

Çatdı çətin günüm, ana, ay ana,
Bu halımda sizə gələ bilmirəm.
Qaçıram içimdə o yan-bu yana,
Dərdimi heç kəslə bölə bilmirəm.

Qismət özümündür, təkcə özümün,
Tab etməz bu yükə sənin dözümün.

Axı, sağdır hələ sənin mən oğlun,
Görməmisən nədir bala dağını.
Mənim məzarıma düşməyib yolun,
Gətir təsəvvürə mənsiz çağını.

Nəvən taqətindir, bilirəm bunu,
O əvəz cləməz fəqət oğlunu.
İlkini itirmək nədir insana,
Mən öləndə bunu duyarsan, ana...

ƏHDİM-ARZUM

Qan tərin içində üzür saçların,
Əlin-ayağınsa buza dönübdür.
Həmləsi azalmır bir an azarın
Sənin atəşlərin niyə sönübdür?!

Biləyin ovcumda, gözün gözümdə,
Mən tuta bilmirəm, nəbzi özün say...
Təsəlli verməyə güc yox sözümdə,
Əcəlin yolunu kəsin, ay haray.

Ay haray, bəxt məni tora salıbdı,
Tərpənə bilmirəm, qaça bilmirəm.
Üç övlad anası darda qalıbdır,
Qolumdan zənciri aça bilmirəm.

O titrəyən ürək, süzülən baxış,
O tövşüyən sinə tibbə tənədi –
Loğmana-dərmana ümid qalmamış,
Əzizim, yenə də əlac sənədi.

Yenə hamımızdan sən ürəklisən,
Qurtarsa qurtarar iradən bizi.
Göstər təbabətə bir möcüzə sən,
Çəkək qoynumuzdan əllərimizi.

Sənlə xoş çağım az olmamışdır,
Az da qalmamışıq boranda, qarda.
Ömrün hər vərəqi naxış-naxışdır,
Qoşa iz salıbdır qış da, bahar da.

İndi... sən bu hala düşəndən bəri
Budur əhdim, arzum, qərarım mənim:
Heç nə istəmirəm, qayıtsın geri
Sənlə möhnətli çağlarım mənim.

GÖZƏL AXTARIRAM

Saçlarım qapqara, könlüm havalı,
Bir gözəl gəzirdim qızlar içində.
Baxışı dupduru, hüsnü-kamalı
Məhəbbət biçimdə, vəfa biçimdə.

Suyu şirin olsun, həyalı olsun.
Sidqlə yandırsın ilk çırağımı.
Qədəmi uğurlu, sayalı olsun,
Bəhəri bəzəsin ömür bağımı.

Sağ olsun taleyim, gəlməsin gözə,
Çıxdı ürcahıma bir kişi qızı.
Sonra da üç oğul... fəqət nədənsə
Qıza həsrət gördük ocağımızı.

Yenə gözəl gəzir gözlərim mənim,
Ürək şövqə gəlir bu axtarışla.
"Arsız qoca" deyə baxışlar qənim
Kəsilməsin... Ey gənc, məni bağışla.

Saçım ağarsa da sərrafdır gözüm!
Üç qız axtarıram qızlar içində.
Tapım hər birini istərdim özüm
Elə qaynanın özü biçimdə...

* * *

Üç oğlum var idi... çox gördü tale,
Cəllad baltasını çaldı belimdən –
Özü ata olan qəşəng siftəmi
Bir göz qırpımında aldı əlimdən:

Qəfil söndü yanan şamım,
Bürcü töküldü qalamın.
Qızlar, gəlinlər ağlasın,
Bacısı yoxdu balamın.

TEZ EVLƏNDİRƏK

Düz deyiblər, bilmir bəzi cavanlar
Ata olanacan ata qədrini;
Sonra göz yaşına qərq edir onlar
Ata türbəsini, ata qəbrini.

İndi körpəsinin əli əlində –
Duyur ki, ən şirin var-dövlət nədir.
Yeriyir atalıq yükü belində –
Duyur şəfqət nədir, məşəqqət nədir,

Duyur öz atası necə üzü şad,
Necə qəlbi küskün köçüb dünyadan...
Gec olur biləndə borcunu övlad,
Dolaşır peşiman, gəzir peşiman.

Həssas görmək üçün övladımızı,
Atalar, yığışın, bir təbdir tökək,
Neyləyək ki, olaq taledən razı?
Mənə qalsa, əlac budur ki, gərək
Cavan oğlanları tez evləndirək.

SEVİNCİMİ GƏZİRƏM

Onda atam sağ idi,
Hamı "əmi" deyirdi,
Mən də "əmi" deyirdim,
Yaşasaydı nə dərdim...

Onda əmim sağ idi –
İndikindən çox idi
Lampamızın işığı,
İndikindən gur idi
Ocağımız – sobamız.

Onda əmim sağ idi –
Hər il məskən edərdik qarlı-güllü yaylağı,
Dəli dağın ətəyi Qoçdaş idi obamız...
İstəməzdi bir an da düşək gözdən irağa,
Əl-üz yumaq adıyla yollanardıq bulağa,
Uşaqlığın yorulmaz həvəsiylə coşardıq,
Bir kəpənək dalınca neçə təpə aşardıq.

Çəmənlikdə itordi gəldiyimiz cığırlar.
Dağın da ki, sehirli boz örpəyi – çəni var,
Göz açanda görərdik bürünmüşük dumana,
Vahiməylə qaçardıq biz o yana, bu yana.

Bir kahaya sığınıb yuxuya da gedərdik,
Adaya tək düşənin halından da betərdik.
Hardan keçsək yenə də gəlib ora çıxardıq.
Şehə batıb islanan əynimizi sıxardıq.
Otların yatımıyla cəhətləri yozardıq.
Dolaşdırıb kələfi, daha betər azardıq,
Bilməzdik ev hardadır, oba harda, biz harda,
Ağlaşardıq qorxudan, çırpınardıq bu torda.

Elə bu vaxt dağ-daşa hay salardı doğma səs,
İstisiylə əriyib tökülərdi boz qəfəs.
– Əmi! Əmi! Hardasan?
Yüyürərdi, gələrdi,
Gözlərinin yaşını gizli-gizli silərdi,
Kövrələrdi o insan...

Yuxudursa o günlər – bir də görə biləydim,
Həqiqətsə – geriyə kaş döndərə biləydim.
Sehr varmı zamanı sürətindən ləngidə?
O həsrətlə tez solub saçlarımın rəngi də.

Bu il yenə köçümü çəkdim həmin yaylağa,
Çıxıb dumanlı gündə gəldim həmin bulağa.
Dərələrdən, dağlardan keçdim gözüyumulu,
Yanan dodaqlarıma düşən şehləri içdim.

Dedim kaş ki, itirəm yenə cığırı, yolu.
Cəhətləri bilinməz çəmənliyə yetişdim,
Xeyli gəzib dolaşdım bu arzuyla, gümanla.
Axşam düşdü, geriyə döndüm qatı dumanla.

Dedim kaş bu dumanda bir də, bir də azam mən,
Durub qorxu içində cəhətdən yozam mən.
Fəqət aza bilmədim...
Yol göstərdi dağ yeli,
Komamızı tuşutdu qayaların boz əli

Dedim, kaş ki, bu çən yox, çöksün yenə o duman,
Özləri yad torpaqda, adı qəlblərdə qalan
Dostlarımla burada yenə yolları çaşaq,
Boz qəfəsdə üşünək, yazıq-yazıq ağlaşaq.

Dedim, kaş, bir səs gələ – yenə həmin doğma səs,
İstisiylə əriyə həmin soyuq, boz qəfəs.
O naləyə-haraya birnəfəsə çapam mən,
O mərd, kövrək insanı – sevincimi tapam mən.

Duman həmin dumandır,
ancaq aza bilmirəm,
bu qaydanı, nizamı
heyif, poza bilmirəm,
heyif, poza bilmirəm...

QARIŞIQ DÜŞMƏSİN

Üz tutdun qürbətə, kövrəltdin məni,
Gözümdən su səpdim arxanca, oğlum.
Sonsuz asimana uçurdum səni –
Bağlandı hər yandan elə bil yolum.

Təlaşla, həsrətlə baxdım dalınca
Ucalıb kiçilən "İL-18"in.
Bulud tayasına od saça-saça
Silindi... göründü... silindi izin.

Sən söndün – alışdım, sən yandın – söndüm.
Tutuldu könlümün abu-havası.
Dəvəsi qeyb olan ərəbə döndüm
Səni gizlədəndə cənub səması.

Ümidim dumanlı göylərdə qaldı,
Fikrimi buludlar dövrəyə aldı.

Dünən yumurtadan çıxmadın məgər,
Nə tez pöhrələndi qolun-qanadın.
Tərcümeyi-halın yazılsa əgər
Dördcə misralıqdır bütün həyatın:

"Çəlimsiz bir çağa. Ağlağan uşaq.
Əlaçı məktəbli. Adi tələbə.
Bu gün işə getdi vətəndən uzaq
Nağıllar yurduna – Şama, Hələbə".

Xasiyyətnamən də mürəkkəb deyil,
Yazım aləm bilsin, sən özün də bil:

Yamanca tərs idin körpə çağında,
Yenə də qalırsan cığallığında.

İfrat təmizliyə aludə idin –
Bir saat çəkərdi əl-üz yumağın.
Qapı-pəncərəni bağlardıq çətin,
İstisi sıfırdı qışda otağın.

Vaxt olur zay çıxır dost-aşina da...
Bəlalar çəksə də yolunda başın
Atana, anana, qardaşına da
İdmini verməzdin heç bir yoldaşın.

Qürbətdəsən, oğul, nə deyim sənə,
Deyimmi əzəlki adəti unut.
İndi o ədalar xoş gəlir mənə –
Paklığı, dostluğu, əzmi əziz tut!

Düşmənə cığal ol,
Sirdaşa məhrəm,
İşində halal ol,
Sözündə möhkəm.

Daha bir ailənin ilki deyilsən,
Ulu bir torpağın oğlu olmusan.
Şahdağı nə deyər sənə, əyilsən,
Düşün Nəsimini! Yaşa dolmusan.

Usdubca bükülüb bağlanıb dünən
Qayğısız gəncliyin dəftər-kitabı.
Sabah sorğulara tutanda vətən
Nəcib əməllərin versin cavabı!

Ürəyintək görün,
Arzuntək yaşa.
Şəfəqlərə bürün,
Başla uçuşa.

Ömrü ucalıqda, zirvədə sına,
Götür sürətini "İL-18"in.
Qiymət qoy, fikir ver addımlarına,
Qarışıq düşməsin yollarda izin...

ŞƏRİYYƏTLİ ÖMÜR

Əllikinci il idi...
Qızıl payız günündə
Mən indiki sən idim
Sən dünyaya gələndə.

Asimanda ümidsiz
Dövrə vuran bir quşdum.
O gün əbədiyyətə –
Bitməz ömrə qovuşdum.

O gün büsat çağımdı,
Qalxdım ilham atına,
Havalandı köhlənim,
Şer oxudum adına.

Yoxsul şair, nimdaş ev,
Addımbaşı ehtiyac...
Sənin ilkin gülüşün
Qəm-qüssəyə dedi: – qaç!

Var-dövlətin gölündə
Üzməsən də o vaxt sən
Oyuncaqdan korluğun
Olmayıbdır mən bilən.

Bələyini bəzədim
Poeziyanın gülüylə.
Boya-başa yetirdim
Səni şerin puluyla.

Yazdığım ilk mahnı da
Laylasıdır o çağın.
Demək tamam şerlə
Yoğruludur varlığın.

Tərk etməyə ömrünü
Belə şuxluq, səadət –
Kaş ki, bələdçin ola
Həyatda da şeriyyət...

Ağı oldu şeriyyətlə
Keçən ömrüm, həyatım.
An-an ötür Fəxrəddinlə
Fəxrəddinsiz saatım.

HƏLƏ Kİ, SAĞAM

1973-cü ilin oktyabr ayında İsrail-ərəb müharibəsinin şiddətli dövründə oğlum Fəxrəddinin Dəməşqdən yazdığı məktublara cavab

Məktubun başlayır: "hələ ki sağam.
Hələlik səbr edin, hələlik dözün".
Gör necə möhkəməm, yıxılmaz dağam –
Uçurub tökmədi məni bu sözün.

Gör necə naterəs, üzübərk daşam –
Sənin bu sözündən toza dönmədim.
Necə nəs çırağam, necə hisli şam –
Sənin bu sözündən qəfil sönmədim.

Necə toza dönüm, necə sönüm mən,
Qalmısan qürbətdə əli uzalı.
Gücsüzəm, deyirəm, oğul, səsimdən
Bəlkə bircə anlıq dərdin azalı.

Gətirir vətənə telefon səni,
Sehirli görüşə çatırıq asan.
Uduram qəhərli, xoş nəfəsini,
Özünlə, sözünlə lap yanımdasan.

Ah, yenə xəyaltək uçdun haraya,
Dənizlər, səhralar düşdü araya...
Səs yetir, əl çatmır, qurbanın olum,
Getmir, qulağımdan harayın, oğlum!

Ora yağan mərmi yağır başıma,
Sənsizəm – özümdən, evdən qaçağam,
Uçrumlu dərələr çıxır qarşıma.
Sorursan necəyəm?
– Hələ ki, sağam...

Nə xoşbəxt çağ imiş, aman, o günlər! –
Üzülü deyilmiş ümiddən əlim...
Necə fərəhliymiş – necə bəxtəvər
Sonralar sənlə keçən on ilim!

Görüş yerimizdi indi məzarın,
Yenə də deyimmi "yıxılmaz dağam" –
Belim əyilidi torpağa sarı,
Nəfəs gedib gəlir, hələ də sağam,
Hələ də sağam...

ƏHDİN MÜBARƏK

"Əhd eləmişəm, vətənə qayıdanda torpağı öpəcəyəm"
(Fəxrəddinin qürbətdən yazdığı məktubundan)

Qayğısız gənc idin, düşdün qürbətə,
Ömrünün bir ili zillətdə keçdi.
Dözümsüz iradən dözdü möhnətə,
Bəd yolu, düz yolu aradı, seçdi.

Gəzdin, yad zirvəyə quşun qonmadı.
Süfrəndə bal varkən acı qum yedin,
Bəsləyib qəlbində bir şirin andı –
"Vətən torpağını öpəcəm..." dedin.

Atayam, ucaltdı bu əhdin məni,
Beləcə görməkdi diləyim səni...
Vaxt çatıb... həsrəti budayaq deyə
Yenə bildirkitək baxıram göyə.

Buludda bir nöqtə quşa çevrilir,
Doğma yuvasına qonmağa gəlir.
O sənsən, əzizim, tez ol, en görək,
Qədəmin mübarək, əhdin mübarək!

FƏXRƏDDİNLİ UCALIĞIM

(*Elegiya*)

Yaman çılğın, yaman da sərt
Bir uşaqdı Fəxrəddinim.
Yaranmışdı xisləti mərd,
Nahaq işə, sözə qənim.
Dediyindən dönməz idi,
Alışdımı sönməz idi.
Kövrək idi körpəlikdən,
Bulud idi – tutqun, dolu.
Toxunsaydın xətrinə sən
Uzanardı üzüquylu.

Qıdıqlayıb durquzsaydın
Gülə-gülə ağlayardı,
Böyüklərtək açıq-aydın
Sonra küsü saxlayardı.

Göz yaşını silə-silə
Deyərdi ki, "mənə baxma..."
Kar etməzdi sıxma-boğma,
Yumşalardı xoş söz ilə...

O dəcəlim yaşa doldu,
Sayılan bir kişi oldu.

Sözü bütöv, vədəsi düz,
Əliaçıq, könlü toxdu.
Başqasının şöhrətində,
Qismətində gözü yoxdu.

Futbolu da, məclisi də,
Bilyardı da çox sevərdi,
Sinəsinə tar qonanda
Açılardı pünhan dərdi.

"Çahargah"la uçub gedər,
Karvanlara qoşulardı.
"Min bir gecə" diyarından
Söz salmağa şövqü vardı.

Onu erkən oyatmışdı
Oxuduğu nağıl, dastan;
Məhvərindən oynatmışdı
Həvəsini Ərəbistan.
Bir gün getdi uça-uça
Arzusunun arxasınca.

Gəncliyinin səsi-ünü
Gəldi ərəb ellərindən.

Qəriblikdə keçdi günü,
Hər sözünün başı vətən.

Fəqət onu qara kölgə
Təqib etdi ölkə-ölkə –

Yetmiş üçdə, Dəməşqdə
Tale yaman gəldi hədə:

Allah, necə yada salım
O zamankı harayını,
Özün danış, qadan alım,
Dillənməyə tabım hanı?

Yazırdın ki "məlum deyil
Qalacağam, öləcəyəm.
Sağ qayıtsam, Azərbaycan
Torpağını öpəcəyəm..."

O vaxt sənin yazıq atan;
O talesiz başıdaşlı

"Mən də hələ sağam..." deyə
Şer yazdı gözüyaşlı.
Azaldıqca gümanımız
Göyə qalxdı amanımız.

Nə gündüzlər oldum aram,
Nə rahatlıq verdi gecəm.
Anan dedi: "Fəxri balam
Sağ qayıtsın, dilənəcəm..."
Sonra... Bəsrə, Bağdadda da
Vətən oldu son pənahın;
Dar məqamda çatdı dada
Ana ahı, ata ahı –
Eşitdik ki, lap yanına
Mərmi düşüb... partlamayıb.
Çox sıdqıdıq sına-sına
Günü sayıb, ayı sayıb.

Qurban dedik, qovduq şəri,
Sağ-salamat döndün geri.

Geri döndün alnıaçıq
İyirmi bir yaşlı cavan –
Baxışında zillət izi,
Portfelində "Fəxri-fərman".

Küçələrdə anan o gün
Yalvarırdı hər gələnə:
"Əhdim vardır, dilənirəm
Beş-on qəpik verin mənə..."

Övlad dərdi çəkmişlərə
Tükürpədən bu hal bəlli,
Duyğusuzsa baş açmayıb
Dedi: "yazıq olub dəli."

Nağıllaşıb dilə düşdü
Təlatümlü sevincimiz.

O "Səadət sarayı"nda
Gördük oğul toyunu biz –
Min doqquz yüz yetmiş səkkiz
10-u fevral, cümə günü...
Kim unudar o bəxtəvər,
O mübarək toy-dügünü.

O gün unudulmazdır, bir də ona görə ki, bizim də – Fəxrəddinin valideyninin də toyu fevralın 10-na (1952-ci il) təsadüf etmişdi. Bu toyun masabəyisi Səməd Vurğun idi. Mötəbər ədiblər, sənətkarlar, müəllimlər adsız-sansız cavan bir şairin xoşbəxtlik gününü qeyd etməyə toplaşmışdılar... Həmin ilin payızında Fəxrəddinim dünyaya gəldi, sonra da... qardaşları. Fevralın 10-u ocağımıza uğurlu olmuşdu. Bəlkə də bu səbəbdən ilkimizin toyunu da həmin günə təyin elədik. O da bəxtəvərliyə çatdı. Taleyindən razı idi (Nə biləydi ki, altıca ilin tamamında elə həmin gün – fevralın 10-da...).

Ev-eşikli, dərdsiz ailə,
İstəyincə münasib iş...
Unuduldu gülə-gülə
Keçirdiyi qorxu-təşviş.

Doğru sözmüş, heç sən demə
Ortaq imiş şadlıq qəmə.
Nəhayətsiz sevinc olmaz,
Əkiz imiş toy ilə yas.

Bəxtəvərlik gəldi gözə...
Sovuşmadı, yox, təhlükə.
Möhlət verib on il bizə
Marıqdaymış həmin kölgə.

Kiprik çalıb göz açınca
Peyda oldu uça-uça.

Gördü Fəxrim Fərəhilə
Dayanıbdır lap hədəfdə –
Evə qalxmaq niyyətilə
Ayaq bascaq balam liftə,

O kölgədən – bəd taledən
Nida gəldi: "yubatma, çək!.."
(Bu sözləri deyəndə mən
Quruyaydı dilim gərək).
Qəltan oldu öz qanına,
Qolları düşdü yanına.
Sındı belim, uçdu qalam,
Qıyya çəkdi Fərəh balam.
Yuxusundan dik atıldı
Atasından əli çıxan
İki yaşlı Ayazım da;

Gəldi, qışqırıb bayıldı
Harayına eli yığan
İlk gəlinim – o qızım da.

Nə oldusa oldu mənə.
Yetişdim dözüm həddinə.
Tamaşaya gəldi Bakı
Müsibəti-Fəxrəddinə.

Qardaşları, anası kür,
Əmi ağlar hönkür-hönkür.
10-u fevral – toy günümüz
İndi onun yas günüdür.
Qəfil xəbər nə tələşli –
Eşidənin gözü yaşlı,
Ayaq üstə keçinibdir
Dayıları bəlli-başlı.

Tanış-biliş həyəcanlı,
Nənə gəldi üzüqanlı,
Cənazəni qucaqlayıb
Layla dedi ah-amanlı:

"Kəsilibdir yuxu qənim –
Huşa gedib gülüm mənim,

Bu qədər də yatmaq olar?
Ayıl balam, ayıl balam,
Nənəni də atmaq olar?
Ayıl balam, ayıl balam.
Cana gəlim sözlərindən,
Ayıl balam, ayıl balam,

Öpüm gülən gözlərindən,
Ayıl balam, ayıl balam...
Ağı desin hər ağlayan,
Balasına yas saxlayan.
Halsızam, qoy çatım sənə,
Dayan, Fəxrəddinim, dayan.

Dayan, desin yuxu yozan
Həqiqətsən, ya arzusan.
Hara belə? Axı özün
Bu dünyaya tamarzısan.

Ağı desin bibiləri,
Nalə tutsun göyü, yeri.
Yığın bura, şivən quraq
Əri ölmüş gəlinləri."

Bilmədim ki, hara qaçım –
Saçlarını yola-yola
Qabağımı kəsdi Leyla,
Ağı dedi Şölə bacım:

"Yola çıxdıq, yağış oldu,
Sazaq gəldi, qar-qış oldu.
El-obanın alqışları
Qardaşıma qarğış oldu.

Qardaş qəlbi yaralıdı,
Tərpətməyin paralıdı.
Onun tərlan balasına
Qıyan ovçu haralıdı?!

Nahaq deyil bu sualım,
Qınamayın qadan alım,
Bizim eldə görünməyib
Belə cəllad, belə zalım.

Həzin-həzin desin ağı
Seyrəngahın sahil bağı.
Gəl, küçələr sonsizləşib,
Ay şəhərin yaraşığı..."

Bir an ağlaşma kəsdi,
Elə bil son nəfəsdi –
Gəlirdi qırıq-qırıq
Ata ünlü hıçqırıq:

"Ölüm asan, dözüm çətin,
Bu dözümə dözüm çətin.
Fikri çaşqın, dərbədərəm,
Sözə baxır sözüm çətin.

Sözlü Fərəh qalıb naçar,
Ayazım təzə dil açar.
Qapı zəngi çalınanda
"Atam gəldi..." deyib qaçar.

Ağı desin səslilər,
Taleyi qəfəslilər.
Ağac əkib bəslədim,
Bar üstündə kəsdilər..."

Otuz bir yaş... iki körpə
Böyüdürdü öpə-öpə.

Dar etmirdi o yurdunu –
yuvasını heç bir kəsin.
Tanıyanlar sevir onu,
pisliyini bilən desin.

Torpaqsevər bir mərd idi,
bir dost qəmi min dərd idi
Onun kövrək ürəyinə.

Süfrəsinə, çörəyinə
Müzayiqə etməz idi,
söz-söhbəti bitməz idi...

Yaraşıqlı qamətinə
Yaraşırdı gur səsi də,
Qürur üstə köklənmişdi
Aldığı hər nəfəsi də.

Onun ərəb lisanında
Üfüqləri yara-yara:
"Hünə Bəku..." yayılırdı
Dalğa-dalğa uzaqlara.

Halal ömür, halal qazanc,
Bir qarnı tox, bir qarnı ac...

Min qayğılı iki körpə
Böyüdürdü öpə-öpə.
Çəkə-çəkə cəfasını,
Gözləyirdi səfasını.
Dar etmirdi heç bir kəsin
O yurdunu-yuvasını.

Varmı sahib göyə-yerə.
Varmı münsif xeyrə-şərə
Körpələrin: "Atam hanı?"
Sualına cavab verə.

Cavab verə qəlbi talan
Qohum-qardaş, el səsinə.
Fəryad edib şivən salan,
"Oğul" deyə mələr qalan

Ata-ana nalәsinə?
Nə faydası harayımın?
Ömrün-günün qürub çağı
Sağalarmı sinə dağı?

Nə faydası harayımın –
Uçub tale sarayımın
Əzəməti, zirvə tağı –
Fəxrəddinli ucalığı.

Nə faydası... Anası
Hey sızıldar, hey inlər,
Öz canına qəsd dilər –

Ağac əkdik, neyləsin,
Bar üstündə kəsdilər...

AYRILIQ

(*Mənsiz – Sənsiz*)

– Dünya! Sürməmişkən hələ səfanı
Daddım hər dərdini, cövrü-cəfanı.
Körpəmin yanında tapşırdım canı,
Yetişə bilmədi imdada, mənsiz.

– Səndən ayrılalı candan ayrıldıq,
Qəlpəsi ürəkdə min yara aldıq.
Bu da möcüzədi – ölmədik, qaldıq,
Nəfəsli müqəvva olmuşuq sənsiz.

– Bu necə bəlaydı gəlib tuş oldum?!
Qərəzsiz zərbəylə vurulmuş oldum.
Daha yuvasına dönməz quş oldum,
Heç kəsi tapmaya o xata, mənsiz.

– Xəyalın önündə çəkirik keşik,
Zindandı – məhbəsdi bizə ev-eşik.
Bağrımız partlayır, sənsizləmişik,
Havamız çatışmır, qalmışıq sənsiz.

– Qürbotdə, vətəndə keçən o çağlar
Bir-bir yada düşər, sirdaşım ağlar.
Bilirəm qəlbində mənə yas saxlar,
Bir daha görməsin qan-qada mənsiz.

– Üstündə qış-payız çiçək təzədi,
Hər biri ürəyə batan nizədi.
Türbəni builki nübar bəzədi,
Sovulan bostanıq, solmuşuq sənsiz.

– Deyirlər bir lentdə gur səsim qalıb,
Aldığım-verdiyim nəfəsim qalıb.
Yaşamaq həsrətli həvəsim qalıb,
Eşitcək düşərsiz siz oda mənsiz.

– Dağlana-dağlana salırıq yada
Bəzən məlul-müşkül baxmağını da,
Bəzən şimşək olub çaxmağını da.
Küsmüsən? Qayıt gəl, hardasan, harda?! –
Boranlı-tufanlı bir qışıq sənsiz.

– Nəriman, Xansuvar! Salamat qalın,
Şirin cavanlıqdan siz də kam alın.
Amandır, məni də bir yada salın
Gedəndə hər toya-büsata mənsiz.

– Fəxrəddin! Sənlə yenə sirdaşıq,
Üç idik, yenə də biz üç qardaşıq.
Ancaq... sevinməyi yadırğamışıq,
Meyli göz yaşına salmışıq sənsiz.

– Qardaşlar! Yaşayın yüz ildən uzun,
Ömrümün qalanı qoy sizin olsun.
Cüt balam böyüyüb kamala dolsun,
Çatdırın onları murada mənsiz.

Əhdim başa gəldi, eşitdi hamı:
Oğlum oldu, yandı taleyin şamı.
Mənim mənsiz qalan Ayaz balamı
Ərköyün böyüdün, ay ata, mənsiz.

– Sənin telin sayaq qıvrımdı teli,
Sənlinkidir üzü, ayağı, əli.
O da sənin kimi oynağan-dəli,
İyini biz ondan alırıq sənsiz.

– Deyərdim bir bacım olsa nə dərdim,
Qəşəng geyindirib kecindirərdim.
Atasız qalıbdır indi Fərəhim,
Onda gözün olsun, ay ata, mənsiz.

– Adı Fərəh, özü talesiz bəndə,
Birdən doluxsunur deyib güləndə,
Baxır üzümüzə adın gələndə,
Cavabsız xəyala dalırıq sənsiz...

– Nənəm ağı desin, sinə dağlasın,
Qara maşınıma qara bağlasın.
Anam layla çalsın, atam ağlasın...
Düşüm qoy həmişə mən yada mənsiz.

– Poladdan, daşdan da bərk imiş ürək,
Yığılıb açılır... yaşayır demək.
Göylərin kədəri qara buludtək
Yüz yol boşalmışıq, dolmuşuq sənsiz.

– Çaydım – gözdən axan yaşa dönmüşəm,
Qartaldım – qanadsız quşa dönmüşəm,
İnsandım – bir soyuq daşa dönmüşəm,
Baxın o doğmaya, – bu yada mənsiz.

– Yazıldı alnına bu müdhiş yazı,
Yerlər narazıdır, göylər narazı.
Bizlər sənə, sən dünyaya tamarzı,
Əlləri qoynunda qalmışıq sənsiz...

YUVAMIZIN QARANQUŞU

Ulduz doğdu bəxtimizə
Sən dünyaya gələn günü.
Bu tarixdə ömrümüzdən
Atdıq kədər-qəm yükünü.

Hər gün, hər an qəlbimizdə,
Fikrimizdə, bil ki, sənsən.
Evimizin, yuvamızın
Qaranquşu – ilki sənsən!

* * *

Sən gəldin dünyaya – bəxtəvər oldum,
Açıldı qanadım, açıldı qolum.
İndisə gör necə bədbəxt atayam
Oğul məzarına aparır yolum.

Ömrün qürub saatında
Hər tale öz büsatında –
Düşgün qoca qıvraq gəzir,
Cavan yatır yer altında.

Açıq söylər neçə sirri
Məharətli Qabil şeri –
Qardaşyana desin görək
Səhv düşəndə nə ad verək
Ata ilə oğul yeri?!

GƏNCLİYİMDƏN AYRILAN GÜN

Tramvayda çoxlu adam,
Azalmırdı minən-düşən...
Nəzərimi cəlb edirdi
Cah ayrılan, gah görüşən,

Bir-birini tanımayan
İnsanların xoş rəftarı.
Yer verirdi görsəydi kim
Uşaqlını, qocaları.

Səs eşitdim: – Əyləşiniz!
Tez çevrilib yana baxdım.
Bir qız durub yer göstərdi,
Mən diqqətlə ona baxdım.

Donub qaldım qarşısında
Təzə açan bu çiçəyin.
Bir an sonra ixtiyarsız:
– Siz kimsiniz? – sordum, – deyin.

Gülməmişdən çuxurlanan
Yanağı od tutub yandı.
Dəli könlüm ilk gəncliyi
Həsrət ilə yenə andı.

O, dilavər uşaq kimi
Kiprik çalıb gülümsədi:
– Hər kiməmsə yaşlılara
Borcumuzdur hörmət, – dedi.

Tanımadım mən o qızı,
Tanımadı o da məni.
Lakin onun bu hörməti
Saldı yaman oda məni.

(Duydum indi saçları ağ
Bir aşiqi lap ürəkdən -
Sevdiyindən "dayı" sözü
Eşidənin dərdini mən).

Qız qalmışdı ayaq üstə –
Yaşıd olsam o, durmazdı;
"Sağ ol!" deyib əyləşdim mən –
İlk gəncliyim... oturmazdı.
Elə bil ki, yatmış idim
Su səpdilər üzərimə.
İlk gəncliyim indi daha
Görünmürdü gözlərimə...

Lakin nə qəm, bir oğlum var,
O böyüyor, çatar boya,
Bir gün yenə gələr mənim
İlk gəncliyim bu dünyaya.

* * *

Böyüdün, bərkidi qolun-qanadın,
Tay-tuşun içində seçildi adın.
"Özüm qurban, – dedi, – nənən dilinə".
Tar çaldın, oynadın, qaldılar heyran.
Qızlar oğrun baxdı qıvrım telinə.
Evə gec gələndə olduq nigaran.
Qapıdan çəkmədim bir an gözümü,
Səni hər görəndə tapdım... özümü.

Mənimdi gülüşün, yerişin sənin,
Mənimdi hər ədan, hər işin sənin.
Payızım sənինlə dönüb yaz oldu,
Heyif... bu büsatın ömrü az oldu.
Məni mənliyimdən qoparan oğul,
Gücümü özüylə aparan oğul.
Ölüb dirilməyin yoxmuş əlacı,
Sənsiz zarıncıyam, bala, zarıncı...

ƏBƏDİYYƏT

Bir adamın bütün nəsli
Yer altından qalxsa əgər,
Neçə rəngli, neçə səsli,
Neçə-neçə qiyafəli,
Neçə cəsurluq heykəli
Milyon-milyon cərgələnər.

Cərgələrdən biri mənim
Arxamdakı insanlardır:
Damarımda çox-çox qədim
Ulusların, obaların,
Nəcib qəlbli babaların –
Ocdadımın qanı vardır.

Bir zəncirdir – o cərgənin
Nə ucu var, nə bucağı,
Onun sirli halqəsinin
Getsə idi biri bada,
Göz açmazdın mən həyata
Əsrimizin oğlan çağı.

Nəhayətsiz bu zəncirin
Son halqəsi bəlkə mənəm?
Düşündükcə dərin-dərin,
Gördükcə don düşən saçı,
Fikr edirdim acı-acı,
Ürəyimi sarmışdı qəm.

Övlad eşqi min həsrətlə
Xəyalımda yandırdı şam –
O zamanlar çox riqqətlə
Bir ataya nəzər salıb,
Qibtə edib, ilham alıb
Bir şerdə mən yazmışam.

Bəxt üzümə güldü, nə qəm,
Gəldi evdən körpə səsi!
Sanki təbrik etdi aləm
O güldükcə şirin-şirin,
Çünki artıq o zəncirin
Mən deyiləm son həlqəsi!

Bir ağacdan neçə budaq
Şaxələnib çıxacaqdır.
Öyünməsin ölüm nahaq –
Mənim qanım milyonların,
Nəsil-nəsil insanların
Damarında axacaqdır.
Mənim gözüm milyonların,
Nəsil-nəsil insanların
Gözləriylə bu dünyaya –
Ulduzlara, Günə, Aya
Zaman-zaman baxacaqdır.

KİTABDAKILAR

Ön söz 4

"OLMAZ-OLMAZ!" DEYİRSƏN

Məhəbbətin alovu 8
İnsan alovu 9
Həsrətliyəm 9
Biləydi kaş 10
"Olmaz, Olmaz!" deyirsən 11
Eşqimin növrağı 11
Qonşu olmaq istəmirəm 12
Cavabından qorxuram 14
Niyə belə şirinsən? 16
Gizli sevgi 16
Bir sevginin meyvəsi 17
Qoca çaylar kimi 18
Gözlər və ürəklər 20
Söyüdlər hıçqırır 21
Köçəri quş 23
Buradadır 24
Artıq adam 26
Gözümüzün qabağında 27
Telefonda söhbət 28
Görüş yeri 29
Pənah gətirmişəm 32
Qəlbimə axdı 32
İsmət 33
Vəfa 34
Sual 35
Boyalı dilbər 35
İnilti və gülüş 36
"Sirdaş" nədir dedim 37
Nişanlı 38
Səhər-səhər 38
Əbədiyyətin bir anı 39
Səni sevən qadın 40
Harayçı 41
Qərənfil 42
Sevgilim 43
Ən kədərli musiqi 43
Zəhləm getdi... çiçəklərdən 45

Sənə baxanda 47
Görən nə deyər 48
Relslər 50
Təsəlli 50
Bu gün səni gördüm 51

ŞUŞA QARABAĞIN ZÜMRÜD TACIDIR

Azərbaycan 54
Sehirli torpaq 56
Bələdikmi özümüzə 58
Diyarım 61
Zümrüd tac 62
"Vətən" yazdım 63
Dəniz xislətli torpaq 64
Bənövşə yarpağı 65
Sirdaş 67
Neyin əfsanəsi 67
Səhvimiz 68
Bu arzum da 69
Gördüm 70
Həyat sənədləri 71
Ustadın kimdir 73
Həsəd 77
Qapını bağlayan fələk 79
Çərkəzin cavabı 80
Sinəsi dağlı dağ 81
Tükənməz mürəkkəb 84
Qartal gözü 85
Məslək yolunda 86

TƏBİƏTİN QIZ VAXTIDIR

Gəlmişəm 87
Laçın qayası 88
Bərədə 90
Qırqovulun qiyməti 91
Maralın öz yolu var 92
Ürəyə açılan atəş 94
Bulaqlar 95
Dağlar buraxmır məni 96
Asan yollar, çətin yollar 99
Bir şəlalə var idi 100

Göy göl mənzərələri 104
Duyğulu bahar 107
Bir meynə vardı 109
Baharın məktubu 109
İki lövhə 110
Bulaqların mahnısı 111
Torağaylar çıxır yola 112
Ballı qaya 113
Dağ payı 114
Elqovan 116
Gözəlliyə səyahət 117
Qərib bahar 119
Təbiətin qız vaxtıdır 120

ONLAR YARANIŞDAN TƏZİMDƏDİRLƏR

Heyrət etdim təbiətin acizliyinə 122
Dinmədikcə 123
Gülməşəkər 124
İbrət üçün 126
Olsa 127
Neynirik 128
İnsafsız məhəbbət 129
Bir az 130
Göy gölün xətrinə 131
"Millət geri qalıb..." deyir 132
Biz onları görmüşük 134
Alaçıq və çadır 134
Bir eşqin tarixi 136
Həkimlə söhbət 137
Zənn eləmə 139
Xuruşlu adam 140
Ağacın dili olsaydı 142

BOSFOR SAHİLİNƏ DÜŞDÜ GÜZARIM

"Yaxşı yol!" 144
"Keçmə namərd körpüsündən" 145
Balaca dayə 148
Ləkələr 154
Yaralı heykəl 156
Daş məktublar 159
Yanıb sönən işıqlar 161

Mən nə haydayam 162
Çətir ürək 163
Bilinməz 165
Yol gedirik 165
İvan Frankoyla söhbət 166
Kiçik Asiyada böyük insan 168
Ulu dağ 171
Ağlayan qız 172
Türk gözəli 173

FƏRƏHLİ-AYAZLI DÜNYAM

Lalə 175
Çobanaldadan 176
Torağay 176
Qırqovul 177
Nənəmin sözləri 177
Dələ 180
Yavan çörəyin dadı 181
Məlahət 182
Balaca ovçu 186

MƏNİM GÖZÜM ULDUZLARA, GÜNƏ,
AYA ZAMAN-ZAMAN BAXACAQDIR

Ulduzlara gedən yolda 189
Səndən öyrənib 191
Göydə məşəl 192
Delfinlər 192
Səssiz mahnı 195
Ürək 196
Son baxışlar 196
Təzə başlanan ömür 198
Gəncənin yanında 198
Füzuli kölgəsi 199
Nəbzin vurur 201
Hamı "Sənsiz" oxuyur 202
Vurğun öldü deməyin 203
Dalğa kimi 206
Vaqif İbrahim 206
Atasız-atalı qız 208
Təzə qalar, əziz qalar 209
Sevil 210

"Təcili yardım" kimi 211
Xeyirxahın intiqamı 212
Yaxşı adam 214
Halal ömür 215
Səfərə çıxan küçələr 217
Suların laylası 220
"Gəlin atlandı" 221
"Biriniz od, biriniz su" 222
Ana və bala 223
Xəyal 225
Gəl qucaqlaşaq 226
Açılmamış kitab 226
İzlənən kölgə 229
Gəlir bahar, gedir bahar 233
Həkim xəstələndi 235
Gələcəyə atlanış 236
Bu il 237
Doğranan günlər 237
Ağ saçlarım 238
Ürəkdə çapıq 240
Kasa Mare 240
İnsan min il yaşardı 243
Nənəm danışqan olub 246
Anamgildədir 247
"Çatdı çətin günüm, ana, ay ana" 248
Əhdim-arzum 248
Gözəl axtarıram 249
"Üç oğlum var idi...çox gördü tale" 250
Tez evləndirək 251
Sevincimi gəzirəm 251
Qarışıq düşməsin 253
Şeriyyətli ömür 255
Hələ ki, sağam 257
Əhdin mübarək 258
Fəxrəddinli ucalığım 259
Ayrılıq 267
Yuvamızın qaranquşu 270
Gəncliyimdən ayrılan gün 271
Əbədiyyət 273